www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 dekabr 2015-ci il Çərşənbə axşamı № 279 (6307) Qiyməti 40 qəpik

**Xəbər**

## İctimai yerlərdə siqaret çəkənlərə ağır cərimələr gəlir

yazısı səh.2-də

**Gündəm**

### Ərdoğandan İsrailə ilginc barış mesajı - körpülər təzədən qurulur?



Türkiyə prezidenti yəhudi dövləti ilə 5 il öncə korlanmış münasibətlərin bərpasını mümkün saydı: "Hamımızın buna ehtiyacı var"...

yazısı səh.7-də

### Pənah Hüseynin qohumlarına hökm oxundu

yazısı səh.3-də

### Banklar problemli kredit məsələsini Konstitusiya Məhkəməsinə çıxara bilər...

yazısı səh.5-də

### Pərviz Həşimli həbsində adı keçən MTN-çilərin cəzalandırılmasını tələb edir

yazısı səh.6-da

*Ərəstun Oruclu:*

### "Bəli, bu gün hakimiyyətə alternativ yoxdur"

yazısı səh. 8 və 9-da

### TANAP sürətlə gerçəkləşir

yazısı səh.7-də

### İTV-nin keçmiş işçisi MTN-çi həyat yoldaşı ilə birgə xaricə qaçdı və danışdı

yazısı səh.2-də

### Azərbaycandan çıxarılan 9,5 milyard dollar...

yazısı səh.11-də

### Kartla satış arağın və siqaretin qiymətini artıra bilər

yazısı səh.11-də

### "Həmsədrlərin prezidentləri görüşdürməsi ildən-ilə çətinləşir"

yazısı səh.13-də

### Bakıda ağır avtoqəza: ata və bir oğlu yaralandı, 2 yaşlı oğlu öldü

yazısı səh.14-də

## Milli Təhlükəsizlik Nazirliyi tarix oldu

# PREZİDENTİN MTN-İ BİTİRƏN FƏRMANI - SƏBƏB NƏDİR...

Eldar Mahmudovun reputasiyasına ciddi zərbə vurduğu qurumun səlahiyyətləri yeni yaradılan iki dövlət xidməti arasında bölündü; Xarici Kəşfiyyat Xidmətinin müstəqil quruma çevrilməsi də regionda yaranmış indiki gərgin situasiyada diqqət çəkir; təhlükəsizlik üzrə ekspertlər yeni yaradılan qurumlar haqda danışdı




yazısı səh.5-də

## İranla "Nardaran razılaşması"

Rəsmi Bakının ehtiyatlı mövqeyinə baxmayaraq, İranın bəzi dairələri Nardaran hadisələrini fürsət bilərək Azərbaycan əleyhinə hücuma keçiblər; XİN-dən ilginc bəyanat; bəzi radikal çevrələr müxtəlif yollarla təsir dairəsində saxlanılan Nardaran kəndinin "itirilməsi" ilə asanlıqla barışmaq fikrində deyillər...

yazısı səh.4-də



*Məlahət İbrahimqızı:*

### "Mən də əfv olacağını gözləyirəm"

yazısı səh.6-da



### Rauf Mirqədirovun məhkəmə istintaqı yekunlaşdı

yazısı səh.3-də



*Zahid Oruc:*

### "Ya hökumət ASAN-laşacaq, ya ASAN xidmət hökumətləşəcək"

yazısı səh.6-da



## Dilqəm Əsgərov məktubunda nə yazıb?

**Ermənilər tərəfindən girov saxlanılan azərbaycanlı Dilqəm Əsgərov ailəsinə məktubunda sağlıq durumunun yaxşı olduğunu bildirib. Bu barədə musavat.com-a D.Əsgərovun qardaşı Sahib Əsgərov məlumat verib. O bildirib ki, Dilqəm Əsgərovun sözlərinə görə, səhhətində problem yoxdur:**

"Dilqəmdən sonuncu məktubu 11 dekabrda aldım. Məktubunda yazıb ki, hər şey yaxşıdır. Qış üçün paltarlar göndərmişdik. Onları da aldığını yazıb. İndi nə mən onun yanındayam, nə də siz. Özü deyir ki, vəziyyətim yaxşıdır. Yəni gözümüzlə görmürük. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri ilə də danışıram. Onlar da deyirlər ki, Dilqəmin səhhətində heç bir problem yoxdur. Şahbaz Quliyevə gəlincə, Dilqəm onu görmür. Bu səbəbdən də Şahbaz haqqında bir şey yazmayıb".

Xatırladaq ki, 2014-cü ilin iyul ayında Dilqəm Əsgərov, Şahbaz Quliyev və sonradan vəhşicəsinə öldürülmüş Həsən Həsənov doğulduqları Qarabağa keçərək ata-babalarının məzarlarını ziyarət etməyə çalışıblar. Ancaq erməni separatçıları Həsən Həsənovu vəhşicəsinə öldürərək Dilqəm və Şahbazı girov götürüb. Separatçı Qarabağ rejimində azərbaycanlılar üzərində qondarma məhkəmə qurulub. Oyuncaq məhkəmə Dilqəm Əsgərov barəsində ömürlük, Şahbaz Quliyev barəsində isə 22 il həbs qərarı çıxarıb.

❑ Əli RAİS

## İTV-nin keçmiş işçisi MTN-çi həyat yoldaşı ilə birgə xaricə qaçdı... və danışdı



**Tanınmış jurnalist, İTV-nin keçmiş əməkdaşı İlham Sərxanlı Azərbaycanı birdəfəlik tərk edib. Aznews.az-ın əldə etdiyi məlumata görə, o, bir müddətdir həyat yoldaşı ilə birlikdə Almaniyaya köçüb və oradan sığınacaq almaq istəyir.**

Məlumata görə, onun həyat yoldaşı MTN-in əməkdaşı olub.

Qeyd edək ki, İlham Sərxanlı İTV-nin İnformasiya Departamentinin müdiri, "Carçı" informasiya buraxılışının aparıcısı olub.

İ.Sərxanlı publika.az-a açıqlamasında deyib ki, hazırda Almaniyada səhhətində yaranmış problemlə bağlı müalicə alır: "Yayda Almaniyada oldum və ilk müayinədən keçdim. Onurğamda ciddi problemlər var, nəticələr açıqlanandan sonra yenidən buraya gəldim. Eyni zamanda ingilis dilimi təkmilləşdirmək üçün burada təhsil almağı planlaşdırıram. 21-ci əsrdə insanların bir-biri ilə əlaqə saxlayıb məlumat almaq imkanı çox sadədir. Heç bir əlaqə saxlamadan və münasibət öyrənmədən məlumat yaymaq savadsızlığın göstəricisidir. Allaha şükür, mən müğənni deyiləm ki, yalan xəbərlə özümü xatırladım. Məmur da deyiləm ki, mənimlə əlaqə yaratmaq qeyri-mümkün olsun. Amma bir tərəfdən də belə xəbərin yayılmasını istehza ilə qarşıladım. Uzun müddət efirdə olmamağıma rəğmən, demək ki, yaddan çıxmamışam. Çünki hər zaman deyilirdi ki, insan 5 ay efirə çıxmayanda unudulur. Demək ki, mənimlə bağlı bu məsələ heç də belə deyilmiş. Mən Avropaya tez-tez gedib-gəlirəm. Harasa getməyimin təəccüblə qarşılanmasını başa düşə bilmirəm".


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# İctimai yerlərdə siqaret çəkənlərə ağır cərimələr gəlir

**Azərbaycanda "Tütün və ya tütün məmulatı haqqında" Qanunla qadağan olunmuş yerlərdə siqaret çəkilməsinə görə cərimə tətbiq ediləcək. Hafta.az-ın məlumatına görə, bu barədə məsələ yeni hazırlanmış İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb. Yeni hazırlanmış məcəlləyə əsasən qanunla qadağan edilmiş yerlərdə siqaret çəkən şəxslər 30 manat məbləğində cərimə ediləcəklər.**



Yeni Məcəlləyə əsasən müəssisələrdə, idarələrdə, təşkilatlarda siqaret çəkmək üçün xüsusi yerlərin ayrılmasının və görünən yerlərdə "siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə vəzifəli şəxslər 400 manat məbləğində, hüquqi şəxslər 1000 manat məbləğində cərimə edilir.

Xatırladaq ki, "Tütün və ya tütün məmulatı haqqında" Qanuna əsasən tədris, tərbiyə, səhiyyə, sağlamlıq və mədəniyyət obyektlərində, habelə idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi zallarda, inzibati binalarda fərdi iş otaqları və siqaret çəkmək üçün müəyyən edilmiş xüsusi yerlər istisna olmaqla, iş yerlərində, yüksək kateqoriyalı restoranlar, kafelər, barlar istisna olmaqla, ticarət, ictimai-iaşə, məişət obyektlərində, ümumi istifadədə olan yaşayış binalarında və digər qapalı yerlərdə, uzaq mənzilli sərnişin nəqliyyatında xüsusi ayrılmış yerlər istisna olmaqla, bütün ictimai nəqliyyat növlərində siqaret çəkilməsi qadağan edilir.

Qeyd edək ki, bir müddət bundan öncə Azərbaycanda ictimai nəqliyyat vasitələrində siqaretin çəkilməsi ilə bağlı qadağaların pozulmasına görə 50 manat məbləğində cərimə tətbiq edilməsinə başlanılıb.

Yeri gəlmişkən, parlamentin ötən çağırışında millət vəkili Qənirə Paşayeva vaxtaşırı ictimai yerlərdə tütün məhsullarından istifadənin məhdudlaşdırılmasını nəzərdə tutan qanun layihəsinin qəbuluna çağırsa da, məsələ gündəliyə salınmamışdı. O zaman iddia olunurdu ki, bu, siqaret mafiyasının dirənişi nəticəsində mümkün olmur.

Yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin növbəti plenar iclasında müzakirəyə çıxarılacaq. Milli Məclisin növbəti iclası 18 dekabrda olacaq. Parlamentin payız sessiyası sonuncu toplantısını 29 dekabrda keçirəcək və tətilə gedəcək.

❑ Cavid TURAN



## Sabiq nazirin oğlu sərxoş halda yol polisini təhqir etdi

**Bakıda yol polisi tərəfindən saxlanılan sürücü itaətsizlik göstərib. Lent.az-ın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, dekabrın 11-də saat 04:30 radələrində yol polisi Yasamal rayonu Cəfər Cabbarlı küçəsi 45 ünvanının qarşısında "Lexus" markalı 10 AR 900 nömrə nişanlı avtomobili saxlayıb. Bakı Şəhər Baş Polis İdarəsi Yol Patrul Xidmətinin inspektoru, polis serjantı Fərid Əkbərov sürücü, 1980-ci il təvəllüdlü Orucov Kamran Əlisaab oğlunun sərxoş olduğunu bildirib və onu tibb məntəqəsində müayinədən keçməyə dəvət edib.**

Bu zaman sürücü yol polisinə qarşı təhqiramiz ifadələr işlədib və müqavimət göstərib. Polis serjantı hadisə ilə bağlı raport yazaraq aidiyyəti üzrə təqdim edib.

Qeyd edək ki, yol polisinin barəsində raport yazdığı Kamran Orucov sabiq ədliyyə naziri və baş nazirin müavini Əlisaab Orucovun oğludur.

Hazırda faktla bağlı araşdırma aparılır.

## Aki Nağı ilə bağlı Elmar Məmmədyarova müraciət edildi

**QAT adıçəkilən qurumun rəhbəri Akif Nağının Gürcüstana buraxılmaması ilə bağlı xarici işlər naziri Elmar Məmmədyarova müraciət edib. Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin Tiflis görüşü ərəfəsində ünvanlanan müraciətdə deyilir:**

"Bu il dekabrın 21-22-də Tiflisdə Azərbaycan, Türkiyə, Gürcüstan xarici işlər nazirlərinin nəzərdə tutulan görüşü ilə bağlı Sizə müraciət edirik. Bu görüşlərin üç ölkə arasında xoş münasibətlərin inkişafına xidmət etdiyi heç kəsdə şübhə doğurmur. Bu görüşlər həm də mövcud problemlərin aradan qaldırılmasına xidmət etməlidir. Bir daha diqqətinizə çatdırırıq ki, Akif Nağı 2014-cü ilin iyun ayından etibarən Gürcüstana buraxılmır. Bu məsələ ilə bağlı biz bir neçə dəfə sizə müraciət etmişik. Həmçinin dəfələrlə Gürcüstanın prezidenti, baş naziri, xarici işlər nazirinə məktub göndərmişik, Gürcüstanın Azərbaycandakı səfiri və konsulu ilə görüşmüşük. Lakin bu günə qədər Gürcüstan tərəfindən müraciətlərimizə heç bir konkret və məntiqli cavab verilməyib, Gürcüstan rəhbərliyinin bu qərarının heç bir səbəbi açıqlanmayıb".

**QAT bəyan edib ki, qadağa təşkilatın işinə mane olur:** "...Bu qərar Azərbaycanla Gürcüstan arasındakı xoş münasibətlərin xarakterinə qətiyyən uyğun gəlmir. Biz burada erməni izinin olduğunu düşünürük. Xahiş edirik ki, Tiflis görüşü zamanı bu məsələni də gündəmə gətirib, müsbət həllinə nail olasınız".

**Müraciətdə deyilir ki, biz Gürcüstanla münasibətlərin xoş olmasını istəyirik, ancaq Gürcüstan rəhbərliyinin bu qərarını xoşniyyətli addım hesab etmək olmaz. QAT xəbərdarlıq da edib:** "Məsələ yaxın vaxtlarda həllini tapmasa, biz kəskin addımlar ata, məsələn, Gürcüstan rəhbərliyinə daxil olan rəsmiləri, prezidenti, baş naziri, xarici işlər naziri, müdafiə nazirini arzuolunmaz şəxs elan edə, onların Azərbaycana səfərlərini etiraz aksiyaları ilə qarşılaya və digər tədbirlərə əl ata bilərik. Biz məsələnin bu həddə çatmasını istəmir və bizim müraciətə diqqətlə yanaşacağınıza inanırıq".

QAT-ın müraciəti ilə bağlı XİN-dən "Yeni Müsavat"a bildirdilər ki, məsələni araşdırandan sonra cavab veriləcək.

❑ ELŞAD


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:




## Cəbhədə 3 erməni məhv edildi

**Müxtəlif istiqamətlərdə əvvəlcədən müəyyən edilmiş koordinatlar üzrə erməni silahlı bölmələrinin cəmləşdiyi nöqtələrə vurulan zərbələr nəticəsində erməni tərəfinin uzunmüddətli atəş nöqtəsi sıradan çıxarılıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, düşmən canlı qüvvə sarıdan ən azı üç nəfər itki verib.

"Silahlı Qüvvələrimizin bölmələrinin fəaliyyəti nəticəsində qoşunların təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısı daha qətiyyətlə alınır" - deyə məlumatda bildirilir.

## Bu il 128 jurnalist öldürülüb

**Bu il 31 ölkədə 128 jurnalist öldürülüb. "Report" TASS-a istinadən xəbər verir ki, bu haqda "Press Emblem Campaign" araşdırma mərkəzinin hesabatında bildirilib.**

Məlumata görə, siyahıda ilk yerdə Suriyadır. Orada 11 jurnalist qətlə yetirilib. İraq və Meksikanın hər birində 10 jurnalist, Fransa, Liviya, Filippində hər birində 8, Braziliya, Hindistan, Cənubi Sudan hər birində 7, Pakistan və Somalidə 6, Hondurasda 5, Ukrayna və Kolumbiyada jurnalist öldürülüb. Ərazisində 3 jurnalist öldürülən Qvatemala 16-cı yerdədir. 17-18-ci yerləri ABŞ və Əfqanıstan tutub. Onların hər birində 2 jurnalist öldürülüb.

Araşdırmada qeyd edilib ki, jurnalistlər üçün ən təhlükəli bölgə Yaxın Şərqdir. Orada 38 jurnalist öldürülüb. Sonrakı yerdə Latın Amerikası (31) gəlir.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Məhkəmənin Leyla Yunusla bağlı qərarından şikayət veriləcək

## Hüquq müdafiəçisi əməliyyat olunacaq; Yunuslar heç kəslə görüşmürlər

**Dekabrın 9-da Apelyasiya Məhkəməsinin qərarı ilə məhkəmə zalından azadlığa buraxılan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun keçən günlər ərzində olan susqunluğu cəmiyyət tərəfindən suallarla qarşılandı. Xüsusilə hüquq müdafiəçisinin səhhətinin ağır olması hər kəsdə narahatlıq doğurur.**

Hazırda SDİ rəhbəri ev şəraitində müalicə olunur. Yaxınları onun heç kəslə görüşmək istəmədiyini, yalnız müalicəsinə vaxt ayırdığını bildirirlər. L.Yunus məhkəmənin onun barəsindəki həbs qərarının 5 illik şərti cəza ilə əvəzlənməsini qəbul etmir. Hüquq müdafiəçisinin vəkilləri qərarın ağır olduğunu bildirirlər. Məhkəmə qərarından kasasiya şikayəti hazırlanır.

**Bu barədə "Yeni Müsavat"a açıqlamasında hüquq müdafiəçisinin vəkili Elçin Sadıqov məlumat verdi:** "Hazırda Leyla Yunus müalicə alır. Həkim nəzarətində müalicəsini davam etdirir. Azadlığa çıxdıqdan sonra telefon vasitəsilə əlaqə saxlamışam. Səhhəti hələ ki kiminləsə görüşməyə imkan vermir. Yaxın günlərdə görüşəcəyik. Apelyasiya Məhkəməsinin qərarı bizə hələ də verilməyib. Qərar gələndən sonra kasasiya şikayəti verəcəyik. Eyni zamanda 5 il sınaq müddətinin seçilməsini ədalətsiz hesab edirik. Kasasiya şikayətimiz təmin olunmasa, Avropa Məhkəməsinə müraciət edəcəyik. Tələbimiz bəraətdir".

**Yunusların ailəvi dostu, psixoloq Azad İsazadə onların vəziyyətlərinin yaxşı olduğunu söylədi:** "Leyla Yunus həbsxanada çox zəifləyib. Evdən bayıra çıxmır. O, çox arıqlayıb. Ayaqları ilə güclə hərəkət edə bilir. Uzanıqlı vəziyyətdə olur. Xarici həkimin müalicəsi davam edir. İstisna etmirəm ki, bu ay həmin həkim təzədən gəlib yeni müalicə təyin edəcək. Leyla xanımın daim ağrıları olur. Özünü pis hiss edir. Yeni şəraitə çalışır ki, uyğunlaşsın".

**A.İsazadə Arif Yunusun da azadlığa çıxdıqdan sonrakı həyatından danışdı:** "Arif Yunusun təzyiqi yenə yüksəkdir. Amma kritik vəziyyətdə də deyil. Göstəricisi yüksəkdir. Dərmanlar qəbul etdiyindən təzyiq yüksəlmir. Azadlığa çıxdığı vaxtlar vəziyyəti ağır idi. Təzyiq 230-240 idi. Amma indi bir qədər azalıb. Son üç günə qədər təzyiqin 200-dən aşağı düşdüyü vaxtlar da olub. Yunuslar hələ də məhbus sayılırlar. Onlar cəzanı şərti çəkirlər. Bakını tərk edib hansısa rayona getsələr, aidiyyəti orqana xəbər verməlidirlər. Xaricdə müalicənin daha effektiv olması heç kəsdə şübhə doğurmur. Leyla xanım indi fiziki cəhətdən çox zəifdir. Amma qarşıdakı bir ayda onun əməliyyat olunması gözlənilir. Öd kisəsində daş var. Dəhşətli ağrılar verir. Yəqin ki, həkimi gələcək. Vəziyyətdən asılı olaraq, vəkillər bu məsələni həll etməyə çalışacaqlar. Sözsüz ki, imkan olsa xaricə müalicəyə getməyə çalışacaq. Qanunda bunun necə nəzərdə tutulduğu barədə bir söz söyləmək çətindir".

Xatırladaq ki, Leyla Yunus ötən il iyulun 30-da həbs edilib. Onun həbsindən bir həftə sonra həyat yoldaşı Arif Yunus həbs edilmişdi. Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə Leyla Yunus 8 il yarım, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilmişdi. Noyabrın 12-də Apelyasiya Məhkəməsi Arif Yunus barəsindəki qərarı ev dustaqlığı ilə əvəz edib. Leyla Yunusun cəzası isə bu ayın 9-da 5 il şərti həbs cəzası ilə əvəzlənib.

❑ Cavanşir ABBASLI



**Elçin Sadıqov:** "5 il sınaq müddətinin seçilməsini ədalətsiz hesab edirik"
**Azad İsazadə:** "Yunuslar hələ də məhbus sayılırlar"



# Rauf Mirqədirovun məhkəmə istintaqı yekunlaşdı

**Fuad Ağayev:** "Məhkəmə istintaqı elə də pis keçmədi"
**Rəfiqə İsayeva:** "Övladım məhkəmə zalından azadlığa çıxsın..."

**Dekabrın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovun növbəti məhkəməsi oldu. Əvvəlki proseslərdə olduğu kimi, jurnalistin ittiham olunduğu "dövlətə xəyanət" maddəsinin tələblərinə uyğun olaraq proses qapalı keçirilirdi.**

Məhkəmə iclası saat 10:30-da başladı və 1 saat davam etdi. Prosesdən sonra jurnalistlərə açıqlama verən Mirqədirovun vəkili **Fuad Ağayev** məhkəmə istintaqının başa çatdığını bildirdi: "Prosesdə məhkəmə istintaqı yekunlaşdı. İttiham çıxışı üçün dövlət ittihamçısına vaxt verildi. Dekabrın 16-da saat 10:30-da prokurorun çıxışı ilə məhkəmə çıxışları başlayacaq. Azərbaycan məhkəmələri üçün götürsək, məhkəmə istintaqı elə də pis keçmədi. Yalnız ümumi şəkildə qiymət verə bilərəm. Leyla və Arif Yunusların şərti olaraq azadlığa buraxılmalarının ümid edək ki, bu prosesə təsiri olacaq. Prokurorun necə çıxış edəcəyini proqnozlaşdırmaq istəməzdim. İndiyə qədər gedən proseslərin nələri göstərdiyini dəfələrlə söyləmişəm. Bir daha deyirəm ki, Rauf Mirqədirov heç bir cinayət törətməyib. Bu faktdır. Özünün əhval-ruhiyyəsində elə bir dəyişiklik yox idi. Leyla Yunusun azadlığa buraxılması xəbərini bugünkü məhkəmə iclasında əldə etdi. İndiyə qədər məlumatı yox idi. Səhhəti normaldır".

**R.Mirqədirovun anası Rəfiqə İsayeva oğlunun arxada qalan məhkəmə istintaqı ilə bağlı fikirlərini bu şəkildə ifadə etdi:** "Leyla və Arif Yunusun azad edilməsi oğluma 100% bəraət qazandırmağa zəmin yaradır. Hazırda Leyla xanım azadlıqdadır. Artıq gözləyirəm ki, mənim oğlum da bugünlərdə azadlığa buraxılsın. Bu işə baxan insanpərvər şəxslər barədə onu deyə bilərəm ki, onların Raufa qarşı irəli sürülmüş ağır cinayət maddəsinə ədalətli baxmalarını arzulayıram. İmkan yaratsınlar ki, övladım məhkəmə zalından azadlığa çıxsın".

Xatırladaq ki, Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. Həmin gün təyyarə ilə Bakıya göndərilən jurnalisti MTN əməkdaşları saxlayıblar. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə həbs-qətimkan tədbiri seçilib.



İl yarım jurnalist həbs müddətinin uzadılması yolu ilə həbsdə saxlanılıb. Jurnalistin ittiham olunduğu ağır maddə üzrə onu ömürlük və ya 15 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir. Yerli və beynəlxalq hüquq təşkilatları onu vicdan məhbusu kimi tanıyırlar. Mirqədirov ona qarşı irəli sürülmüş ittihamları qəbul etmir.

❑ Cavanşir ABBASLI
Foto müəllifindir



# Pənah Hüseynin qohumlarına hökm oxundu

## Hakim yeddi nəfərə həbslə bağlı olmayan cəzalar tətbiq etdi

**Dekabrın 14-də Sabirabad Rayon Məhkəməsində müxalifət lideri Pənah Hüseynin yeddi qohumunun məhkəməsi keçirilib. Musavat.com-un xəbərinə görə, hakim Firdovsi Əliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənlər son söz deyiblər.**

Çıxış edən yeddi nəfərdən heç biri özünü təqsirli hesab etməyib. Onlar həmçinin məhkəmədən ədalətli qərar çıxarmasını istəyiblər.

Məhkəmənin qərarına əsasən, İxtiyar Sərxoşov 3 il müddətinə şərti cəza alıb. Digər altı nəfər isə 2 ilədək müddətə islah işləri ilə cəzalandırılıblar. Həmçinin qarşı tərəfdən Rəsul Dəmirov da 2 il müddətinə islah işləri ilə cəzalandırılıb.

Qeyd edək ki, dövlət ittihamçısı onlara ağır cəza istəmişdi. Dövlət ittihamçısı 2014-cü ilin avqustunda baş verən xuliqanlıq hərəkətlərinin şahid ifadələri ilə təsdiqini tapdığını bildirərək 23 il iş iştəmişdi. O, İxtiyar Sərxoşov üçün 5 il, Sərxoş Sərxoşova 5 il, Adil Hüseynova 3 il, Vasif Hüseynova 2 il 6 ay, Mansur Hüseynova 2 il 6 ay, Qaşqay Hüseynova 2 il 6 ay, Xalid Sərxoşova 2 il 6 ay müddətinə həbs verilməsini istəmişdi. Qarşı tərəfdən təqsirləndirilən Rəsul Dəmirova da 2 il 6 ay iş istənilmişdi.

Vəkillər isə dəfələrlə bildirmişdilər ki, hüquqlarını müdafiə etdikləri şəxslərin əməli xuliqanlıq deyil. Vəkillərin sözlərinə görə, ekspertizanın nəticələri ibtidai istintaqı şübhə altına salıb. İfadələr təzadlıdır. Ekspertizadan sonra ifadələr dəyişdirilib. Hadisə baş verən yer də ictimai yer deyil, evlərdən uzaqda əkin sahəsidir. Vəkillər istintaqın mövqeyi ilə razı olmadıqlarını vurğuladılar. Onlar istintaq zamanı bununla bağlı fikirlərini çatdırdıqlarını da xatırlatdılar. Vəkillərin sözlərinə görə, istintaq normal aparılmayıb, məsələlərə qərəzli yanaşıb.

Göründüyü kimi, hakim prokurordan ədalətli davranaraq yeddi nəfərə yüngül cəza verib.

Xatırladaq ki, ittiham versiyasına görə, 2014-cü ilin avqustunda Sabirabadın Qaraqaşlı kəndində kənd sakinləri arasında mübahisə baş verib. Nəticədə Rəsul Dəmirov Adil Hüseynovu vuraraq su kanalına salıb. Həmin gün isə kənddən kənarda, əkin sahəsində hər ili tərəfdən qohumlar mübahisəni aydınlaşdırmaq üçün yığışıblar və dalaşıblar. Bir müddət sonra isə rayon polis idarəsinə çağırılan zaman idarənin həyətində Rəsul Dəmirov Mansur Hüseynovu vurub. Pənah Hüseynin qohumları isə bunların dalaşması barədə deyilənləri qəbul etmirlər.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015



# Cərimələrdən qazananlar da cərimələnsə...

Samir SARI

**Bu cərimə məsələsi absurda gedir, əziz oxucular. Bu xüsusda gündə beş-altı xəbər çıxır və qədirbilən xalqımız bu xəbərlərdən çox pəjmürdə olur.**

Əslində uzun illərdir ki, xarici ölkələrə çox gedən və oranın qayda-qanunlarını görüb bəyənən, eyni şeylərin ölkəmizdə də olmasını istəyən şəxslərin arzuları doğrulur.

Demirdikmi Avropada yolu icazə verilməyən yerdən keçən yoxdur, ona görə ki, cəriməsi var və insanlar pul itirməməkdən ötrü yolu işarələnmiş yerlərdən keçirlər? Artıq bizdə də öylədir. "20 Yanvar" tərəfdə, "Nizami" kinoteatrının yanında, şəhərin bir çox mərkəzi yerlərində hər gün yüzlərlə, bəlkə də minlərlə piyada cərimələnir. Hiss olunur ki, bu tədbir effekt verir. Məsələn, əvvəllər "20 Yanvar" dairəsində, velotrekə tərəf keçən insanlar sellənib gedirdilərsə, indi təkəm-seyrək keçən olur, onlar da polis tərəfindən fıştırıqla durdurulur.

Yazmırdıqmı ki, Avropada küçəyə zibil atanlar cərimələnir, ona görə də küçələr təmizdir. Bizdə də elə olacaq, cərimələr gəlir.

Orda-burda danışmırdıqmı ki, Avropada heyvanları incidənləri cərimələyirlər, ona görə də insanlar heyvanlara qarşı mərhəmətlidir. Gözünüz aydın olsun, ey heyvansevərlər, heyvanları incidənləri cərimələyəcəklər - qulun kimi çığırda-çığırda pullarını alacaqlar, təzə qanun çıxıb.

Qanun layihəsinə görə, heyvanları şikəst və ya tələf edənlərdən 500 manat alacaqlar. Daha əvvəlki kimi küçə itlərini maşınla vurub aradan çıxmaq mümkün olmayacaq. İndi yiyəsiz itlərin də sahibi var. Başqa vaxt olmasa da, maşınla vurulduqları zaman hökumət onların qisasını zalımda qoymayacaq, tutub pulunu alacaq.

Bekarçılıqdan it döyənlərin işi də çətinləşir. Onlar sırf məzəyə, zövq üçün it döymək vərdişlərini tərgitməli olacaqlar. Cəriməsi böyükdür. Yadınızdadırsa, bəzi ağzıqara gədələr itə işgəncə verib videolentə də çəkmişdilər. O söhbət qurtardı.

Hətta biz bir çöl heyvanını, tutaq ki, dovşanı, kirpini, dələni, tısbağanı, timsahı, köpək balığını sırf mərhəmət prizmasından götürüb evimizə gətirsək cərimələnə bilərik. Çünki onları təbii mühitindən ayırırıq. Düzgün deyil. Bu hala görə bizim kimi fiziki şəxslər 200-500, vəzifəli şəxslər 2000 -2500, hüquqi şəxslər isə 5000 -7500 manatadək miqdarda cərimə edilir. Məcəllədə belə yazırlar.

Bu xüsusda daha pis bir şey də var. İndən belə dost-aşna ilə meşə talasındakı bulağın üstündə ocaq qalayıb kabab bişirmək də çətinləşəcək. Gərək özünlə meşəyə odun, kömür aparasan. (Məsələn, Stokholmda camaat quru odunların bol olduğu yerlərə torbada kömür aparır). Meşənin qurumuş bitkilərinin budaqlarından çırpı kimi istifadə etmək, onları yandırmaq olmaz. Cəriməsi 500 manatdan 7000 manata qədərdir. İndi bəzi həmkarlar deyirlər ki, hökumət büdcəni bu cür cərimələrlə doldurmaq istəyir, çünki neftin qiyməti aşağı düşüb, büdcədə pul azalıb.

Bəlkə də belədir. Yəqin ki, elə bir niyyət də var. Məsələn, bir az da sıxsalar yolu düz keçməyən piyadalardan alınan cərimənin ümumi məbləği bəlkə də Ermənistanın hərbi büdcəsi qədər olacaq. Küçəni zibilləyənləri də vicdanla, heç kəsə güzəşt etmədən cərimələsələr, hesab edin ki, dənizdə daha bir neft yatağı tapılıb. Hərçənd bu da tükənən sərvətdir. Çünki bir pinti adam iki dəfə cərimələnəndən sonra görəcək ki, belə olmaq sərf eləmir, dönüb təmizkar olacaq.

Sizə deyim ki, Avropanın mədəni ölkələrində insanları məhz cərimələyə-cərimələyə adam ediblər. Yoxsa özbaşına qoysalar, indi onlar da zibili küçəyə tökürdülər, üçrəngdə qırmızı işığdan keçirdilər, küçədə anqıra-anqıra gəzirdilər.

Yeri gəlmişkən, beş-altı gün əvvəl Brüsseldə metroya düşəndə qəfildən eşitdik ki, sanasan, tunelə bir sürü eşşək girib. Bir anqırtı, kişnərti səsi gəlirdi ki. Bir az aşağı endik, gördük 7-8 qaradərili gənc nəyə görəsə səslərini başlarına atıblar, hırıldayır, zarıldayır, rəsmən anqırırlar. Aydın məsələydi ki, özlərini bu cür ifadə edən, doğulduqları ölkənin üzünü bu sayaq ağardan gənclər Belçikaya yeni gəliblər. Yerli adam olsalar, bilərdilər ki, metroda anqırmağa görə cərimə var.

Bu cərimələr qanunpərəst, qaydasevər adamlar üçün qorxulu deyil. Vay o gündən ki, kriminal qafalı məmurlar bu cərimələrdən öz cibləri üçün istifadə eləsinlər. Bax, bu cinayətdir.

Yaxşı olar ki, cərimələrdən sui-istifadə edənləri də cərimələsinlər.

# Tehranda Azərbaycana qarşı aksiyalar

# İranla "Nardaran razılaşması"

**Dekabrın 1-dən Nardaranda başlanan əməliyyatlar, qəsəbədə qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi, eləcə də mərkəzi hakimiyyət orqanlarının fəaliyyətinin bərpa olunması prosesi davam edir. "Müsəlman Birliyi" Hərəkatının rəhbəri Tale Bağırzadənin və tərəfdarlarının noyabrın 26-da həbsi zamanı 4 nəfərin və 2 polis əməkdaşının öldürülməsindən sonra qəsəbədəki vəziyyəti nəzarət altına almaq üçün başlanan əməliyyatlarda saxlanılanlar da var.**



## Rəsmi Bakının ehtiyatlı mövqeyinə baxmayaraq, İranın bəzi dairələri Nardaran hadisələrini fürsət bilərək Azərbaycan əleyhinə hücuma keçiblər; XİN-dən ilginc bəyanat; bəzi radikal çevrələr müxtəlif yollarla təsir dairəsində saxlanılan Nardaran kəndinin "itirilməsi" ilə asanlıqla barışmaq fikrində deyillər...

Daxili İşlər, Milli Təhlükəsizlik nazirlikləri və Baş Prokurorluğun birgə yaydığı məlumatda və digər rəsmilərin bəyanatlarda bildirilir ki, həbs edilənlər dövlətin konstitusiya quruluşunun əsaslarını dəyişməyə, sabitliyin və ictimai asayişin pozulmasına cəhd ediblər. Gözlənilir ki, yaxın günlərdə həbs edilənlərə qarşı konkret ittihamlar irəli sürüləcək.

Nardaran hadisələrində diqqətçəkən ən vacib məsələ ilk gündə İranın özünü "kənara çəkməsi" oldu. Əməliyyat başlayan gün İranın Azərbaycandakı səfirliyi bəyanatla çıxış etdi. Bəyanatda İranın Nardaranda baş verən hadisələrlə heç bir əlaqəsinin olmaması bildirilirdi. Bəyanatda vurğulanırdı ki, İran heç vaxt Azərbaycanın daxili işlərinə qarışmaq məqsədi güdməyib və Nardaran hadisələrinin baş verməsində də heç bir rolu olmayıb: **"İran daim dost ölkələrdə sabitliyin və əmin-amanlığın bərqərar olunmasını istəyib və prinsipial bir siyasət olaraq problemlərin və ixtilafların zorakı yollarla həllinə qarşı olmuşdur"**. Elə həmin gün İran parlamentinin sədri Əli Laricani "Azərbaycanın daxilində baş verən hər bir hadisə bu dövlətə aiddir" deyə, münasibət bildirdi. Maraqlıdır ki, bu bəyanatdan sonra İran parlamentinin Təhlükəsizlik və xarici siyasət komissiyası sədrinin müavini Mənsur Həqiqətpurun da açıqlaması yayıldı. M.Həqiqətpur Azərbaycan hakimiyyətinin kəndə müdaxiləsini pisləyərək "hakimiyyət orqanları regiondakı diktatorların aqibətindən ibrət dərsi almalıdır" dedi.

Azərbaycan rəsmiləri, hakimiyyətə yaxın deputatlar, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Şeyxülislam Allahşükür Paşazadə Nardaran hadisələrindən danışarkən İranın adını belə çəkmədilər. Şeyx hətta Nardaran hadisələrinin "İrandan daha uzaq dövlətlərin marağında" olduğunu dedi. Halbuki İran mətbuatı Nardaran hadisələrini elə ilk gündən geniş işıqlandırır, həm rəsmi, həm də mühafizəkar dini çevrələrə bağlı xəbər saytları məqalələrində demək olar ki, eyni münasibət sərgiləyirdilər. Belə ki, bütün saytlarda Nardaran hadisələri şiələrə qarşı "səlib yürüşü" kimi təqdim edilirdi. İran mediası yazırdı ki, ölkənin iri məscidlərində Nardaran hadisələrinə dair geniş xütbələr verilib, həlak olanlar şəhid kimi anılıb. İran mətbuatı hadisələrlə bağlı hətta Həsən Ruhani hakimiyyətini laqeydlikdə belə suçlamaqdan çəkinməyib.

Rəsmi Bakının ehtiyatlı mövqeyi indiki gərgin geosiyasi şəraitdə Tehranın qarşısına almamağa hesablanıb. Türkiyə ilə Rusiyanın münasibətlərinin kəskin pisləşməsi, Tehranın Kremllə yenidən birgə cəbhə yaratması Azərbaycanın manevr imkanlarını onsuz da xeyli qısıtlayıb. Xəzərdə İran və Rusiya gəmilərinin boy göstərdiyi bir vaxtda Tehranı qıcıqlandırmaq Azərbaycana əlavə problemlər yarada bilər. Bu səbəbdən də son vaxtlar xeyli isinən Bakı-Tehran münasibətlərini qorumaq siyasi konyunktura baxımından doğru qərardır və başadüşülədir. Amma belə görünür ki, İran hakimiyyətindəki şərti olaraq mühafizəkar adlanan qanadı Azərbaycanın Nardarana görə cəzalandırılmasını, münasibətlərin korlanmasını istəyirlər. Neçə gündür ki, İranın bəzi din xadimləri Nardaran hadisələrinə görə Azərbaycanın ünvanına hədə-qorxu gəlirlər və qızışdırıcı bəyanatlar verirlər.

Aydındır ki, sözügedən dairələr illərdir ki, ən müxtəlif yollarla təsir dairəsində saxladığı Nardaran kəndinin "itirilməsi" ilə asanlıqla barışmaq fikrində deyillər. Bu səbəbdən də rəsmi Bakının ehtiyatlı mövqeyinə baxmayaraq, İranın bəzi dairələri Nardaran hadisələrini fürsət bilərək Azərbaycan əleyhinə hücuma keçiblər.

Belə ki, Azərbaycanın İrandakı səfirliyinin qarşısında onlarla adamın iştirakı ilə etiraz aksiyası keçirilib. Virtualaz.org saytının İranın "Səhər" telekanalına istinadən verdiyi xəbərə görə, aksiyada onlarla insan iştirak edib. Məlumata görə, etirazçılar müxtəlif dini şüarlar səsləndirib və Nardaranda baş verənlərə görə Azərbaycandan izahat tələb ediblər. Azərbaycan səfirliyinin mühafizəsini gücləndirmək üçün əlavə polis qüvvələri cəlb olunub. Bundan əvvəl də Azərbaycanın Təbrizdəki Baş Konsulluğunun binası qarşısında oxşar aksiya keçirilmişdi. Aksiya iştirakçıları Azərbaycan hüquq-mühafizə orqanlarının Nardaranda radikal dinçi ekstremistlərə qarşı keçirdiyi xüsusi əməliyyata etirazlarını bildirmiş, Azərbaycanda "dünyəvi dövlət quruluşunu ləğv edərək şəriət dövləti qurmağı" tələb etmişdi.

Ötən gün rəsmi Tehran da Nardaran hadisələri haqda bəyanat verib. XİN-in rəsmi nümayəndəsi Hüseyn Cabiri Ənsari Bakının Nardaran qəsəbəsində baş vermiş hadisələrə münasibət bildirərkən deyib ki, XİN "İran xalqının müxtəlif qruplarının Azərbaycan Respublikasında baş verən son hadisələrə dair hisslərinə və narahatlıqlarına" hörmətlə yanaşır. **"İran Xarici İşlər Nazirliyi Azərbaycanda baş verən son hadisələri müxtəlif aspektdən diqqətlə izləyir və bu ölkənin müvafiq orqanları ilə daimi təmasda olub"** deyə, C.Ənsari bildirib. C.Ənsari ötən həftə sonu Vahid Ümma Beynəlxalq İttifaqı adlı dini təşkilatın İranın "Azərbaycanda müsəlman şiələrin əzilməsinə və Nardaran qəsəbəsində keçirilən reydlər zamanı insanların həlak olmasına" passiv münasibət göstərməsinə dair ittihamlarını da şərh edib. İran XİN rəsmisi Azərbaycanda Məhərrəm ayının bitməsi münasibətilə keçirilmiş matəm mərasimlərinə toxunaraq deyib: **"İki ölkə arasında məsləhətləşmələr nəticəsində dini məkanların müqəddəsliyinin qorunub saxlanılması və İslam ayinlərinin keçirilməsi qaydalarına dair daha münasib atmosferin yaradılması nəzərdə tutulub"**.

İran XİN ilk dəfədir Nardaran hadisələri ilə bağlı öz mövqeyini açıqlayır. Məlum olur ki, Nardaran hadisələrinə görə İranın Xarici İşlər Nazirliyi və digər rəsmi strukturları ilə Azərbaycanın müvafiq strukturları arasında təmaslar olub. Söhbətin hansı səviyyəli təmaslardan getdiyi məlum olmasa da, güman etmək olar ki, rəsmi Bakı Nardaranda baş verənlərin əsl mahiyyəti, əməliyyatların dinə və dini qadağalara aid olmadığı barədə rəsmi Tehrana arayış verib. Mümkündür ki, rəsmi Tehrandan da Nardaran hadisələrində "fəal mövqe" tutmamaq istənilib. Məhz bu səbəbdən də İranın Bakıdakı səfirliyi yaydığı bəyanatlarda kifayət qədər təmkinli mövqe tutub.

Amma belə görünür ki, "İran Nardaranın arxasından qaçdı", "Tehran Bakıdakı son istinad məntəqəsini itirdi" kimi ortaya çıxmış (bəlkə də qəsdən dövriyyəyə buraxılan) iddialar İranın müəyyən qüvvələrinin "çörəyinə bal sürtüb". İranın mərkəzi hakimiyyətindəki bəzi çevrələr qızışdırıcı mövqe tutaraq münasibətlərin gərginləşməsinə çalışır. İran dairələri Nardaranda həbs edilənləri müdafiə etməklə işarə verir ki, onların arxalarından geri çəkilməyib.

"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

# Milli Təhlükəsizlik Nazirliyi tarix oldu

**Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqda fərman imzalayıb. Prezidentin imzaladığı sərəncamlara əsasən, Milli Təhlükəsizlik Nazirliyinin əsasında yaradılan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsinə Mədət Quliyev, Xarici Kəşfiyyat Xidmətinin rəisi vəzifəsinə isə Orxan Sultanov təyin ediliblər. Beləliklə, iki aya yaxındır ki, gündəmi məşğul edən “milli təhlükəsizlik naziri kim olacaq” sualına prezident nöqtə qoyub.**




# Prezidentin MTN-i bitirən fərmanı - səbəb nədir...

## Eldar Mahmudovun reputasiyasına ciddi zərbə vurduğu qurumun səlahiyyətləri yeni yaradılan iki dövlət xidməti arasında bölündü; Xarici Kəşfiyyat Xidmətinin müstəqil quruma çevrilməsi də regionda yaranmış indiki gərgin situasiyada diqqət çəkir; təhlükəsizlik üzrə ekspertlər yeni yaradılan qurumlar haqda danışdı

Fərmandan da göründüyü kimi, MTN iki müstəqil xidmətə ayrılıb və reputasiyası yerlə bir olan qurum tarixin arxivinə çevrilib. Əslində prezidentin MTN-in adını dövlət qurumları içərisindən çıxarması gözlənilən addım idi. Çünki Eldar Mahmudov və onun general bandası MTN-in adını sözün həqiqi mənasında batırmışdılar. “Milli təhlükəsizlik” kimi mühüm sözü özündə ehtiva edən bu qurum “mahmudovçular”ın əməlləri sayəsində elə bir ağır zərbə almışdı ki, onu bərpa etmək mümkünsüz görünürdü. Aralarında bir neçə generalın da olduğu qanunsuz dəstənin 19 üzvü hazırda həbsdədir və onlar artıq təkcə sabiq əməliyyatçı deyillər, həm də keçmiş MTN-in keçmiş əməkdaşlarıdır. Prezident MTN-in adı üzərindəki “mahmudovçu qara ləkəni” götürmək, buradakı həm də vicdanlı poqon adamlarını qorumaq üçün bu qurumu ləğv etdi. Eldar Mahmudov müasir tarixə təkcə burada törətdiyi əməllərə görə deyil, həm də MTN-i gömən adam kimi də düşdü.

Xarici Kəşfiyyat Xidmətinin müstəqil quruma çevrilməsi də regionda yaranmış indiki gərgin situasiyada diqqət çəkir. Çünki indi elə bir həssas vəziyyətdir ki, çevik qərarlar verilməsi zəruridir.

***

**Dəyişikliklərlə bağlı fikirlərini öyrəndiyimiz sabiq MTN zabiti, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl deyib ki, verilmiş qərar doğrudur:** “2 il əvvəldən MTN haqda suallara cavab verəndə deyirdik ki, imkan daxilində MTN-dəki iki qurumun - kəşfiyyat və əks-kəşfiyyatın ayrılması xüsusi xidmət orqanının xeyrinədir. Azərbaycanın yerləşdiyi bölgənin özəllikləri Xarici Kəşfiyyat Xidmətinin müstəqil olmasını, müstəqil çevik qərarlar verməsini zəruri edir”.

**İ.İsmayıl deyir ki, MTN-də baş verənlərin fonunda dəyişikliklərin olması təbiidir:** “Bu dəyişikliklər MTN-də baş verənlər bir tərəfə çıxarılandan sonra baş tutsaydı, təmizləmələr, söz-söhbətlər başa çatandan sonra həyata keçirilsəydi daha doğru olardı. Görünür, dövlətdə belə qərara gəliblər ki, dəyişikliyə indidən getmək daha yaxşıdır”.

**İ.İsmayıl Xarici Kəşfiyyat Xidmətinə rəis təyin edilən Orxan Sultanovun peşəkar kəşfiyyatçı olduğunu söylədi:** “Peşəkar kəşfiyyatçılar adətən kölgədə qalırlar. Bildiyimizə görə, savadlı, qabiliyyətli şəxsdir. Bu sahə üzrə peşəkarlardandır”.

**Uzun müddət təhlükəsizlik orqanlarında çalışmış, təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev MTN bazasında yaradılan xidmətlərin Azərbaycan dövlətinin güclənməsinə xidmət edəcəyinə əmin olduğunu deyib:** “Bu gün dünyanı idarə edən supergüclü dövlətlərdə Milli Təhlükəsizlik Agentliyi ilə yanaşı Federal Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti fəaliyyət göstərir. Bu baxımdan Azərbaycanda da bu iki xidmətin yaradılması zamanının tələbidir. Bu, dünya praktikasında tətbiq olunan metodlardan biridir. Kəşfiyyat və əks-kəşfiyyatın ayrılması doğrudur. Qurumun biri kəşfiyyatla, digəri isə əks-kəşfiyyatla məşğul olacaq. Bundan Azərbaycan qazanacaq, itirməyəcək. Təbii ki, ayrılmalardan sonra da hər iki qurumun özündə struktur dəyişikliyi ediləcək. Struktur dəyişikliyi MTN-in bütün heyətinin sərəncama göndərilməsi və yeni strukturun formalaşdırılması üçün yenidən ştata qaytarılmasını zəruri edir. Ümumiyyətlə, təcrübədə belədir ki, kim layiqdirsə, işi bacarırsa, eyni zamanda kəşfiyyat və əks-kəşfiyyat sistemində səriştəsi varsa, onlara böyük ehtiyac olur və bu istiqamətdə onların ştata qaytarılması məqsədəuyğundur".

**A.Nağıyev deyir ki, bu qurumların ayrılması haqda illər əvvəldən müzakirələr vardı:** “Qurumların adında milli sözünün olmaması o anlama gəlmir ki, bu qurumlar Azərbaycan xalqına yad qurumlardır. Hər iki qurum Azərbaycan xalqının, Azərbaycan dövlətinin təhlükəsizliyinin təmin olunmasına xidmət göstərəcək. Yenə də eyni funksiyaları yerinə yetirəcəklər. Daha çevik, daha operativ qərarların qəbul olunması, həyata keçirilməsi təmin olunacaq”.

**A.Nağıyev Xarici Kəşfiyyat Xidmətinə rəhbər təyin olunan Orxan Sultanov haqda bunları dedi:** “Professional kəşfiyyatçıdır”.

Prezidentin bu fərmanına münasibət öyrənmək üçün vaxtilə analoji təkliflə çıxış etmiş milli təhlükəsizlik nazirinin sabiq 1-ci müavini Sülhəddin Əkbəri də danışdırdıq.

**Sabiq MTN-çi bildirdi ki, verilən qərarı olduqca müsbət qiymətləndirir:** “Dövlət başçısı görünür ki, bu sahədə verilən təkliflərə diqqətlə yanaşır. Amma onu da qeyd etmək istəyirəm ki, təkcə bu təklifin qəbul olunması özlüyündə nə Azərbaycanın kəşfiyyat xidmətinin, nə də təhlükəsizlik xidmətinin güclənməsinə gətirib çıxara bilməz. Bundan ötrü verilən təkliflərin hamısı kompleks şəkildə nəzərə alınmalıdır. Və xüsusən də kadrların hazırlanması sahəsinə xüsusi diqqət yetirilməlidir. Birincisi, MTN-də tamamilə təmizlənmə əməliyyatı aparılmalıdır. Müəyyən standartlara cavab verməyən kadrların hamısı oradan uzaqlaşdırılmalıdır. İkincisi isə oraya yeni kadrların cəlb olunmasında üç məsələyə xüsusi diqqət yetirilməlidir.

Birinci məsələ vətənpərvərlikdir. Çünki oraya seçilən kadr vətənpərvər olmasa, onun digər keyfiyyətləri nə qədər yüksək olursa-olsun, o funksiyanı yerinə yetirə bilməyəcək. İkincisi, yüksək intellektual səviyyə, analitik düşüncə qabiliyyəti olmalıdır. Üçüncüsü də peşəkar olmalıdır və yüksək keyfiyyətli təhsil almalıdır. Bunun üçün də akademiyada da təhsil strukturu yenidən qurulmalıdır".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Banklar problemli kredit məsələsini Konstitusiya Məhkəməsinə çıxara bilər...

## Ekspert: “Çalışacaqlar ki, problemi kökündən və birdəfəlik həll etsinlər, amma...”

**Vətəndaşın borcunun onun gəlirinin yalnız özünün və himayəsində olan şəxslərin yaşayış minimumundan artıq qalan hissəsindən tutula bilməsi haqda ekspert fikirləri geniş müzakirəyə səbəb olub. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, bankların məsələ ilə bağlı cavabı hüquqi deyil, ənənəvidir: “Konkret bu hal üçün heç bir hüquq normasına istinad etmədən dedilər ki, ”icbari ödəniş" yalnız onlara sərf edən məsələləri əhatə edir. Bankların mövqeyi absurddur. Mərkəzi Bankın “Banklarda kreditlərin verilməsi Qaydaları” var. Həmin Qaydaların 4.1.8-ci bəndində deyilir: “Bankdaxili qaydalarda borcalanların krediti qaytarmaq qabiliyyətini müəyyənləşdirmək məqsədi ilə həm kreditlər verilməzdən əvvəl, həm də kreditlər verildikdən sonra maliyyə hesabatlarının təqdim edilməsi tələbi müəyyən olunmalıdır...**

Fiziki şəxslər üçün maliyyə hesabatları qismində əmək haqqı və ya rəsmi qaydada təsdiq edilmiş fiziki şəxsin digər mənbələrdən aldığı gəlir barədə arayış tələb olunmalıdır”. Qısası budur: bank vətəndaşa kredit verəndə onun krediti qaytara bilməsini qiymətləndirmək üçün gəlirini təsdiq edən rəsmi sənəd tələb etməlidir. “Yaşayış minimumu haqqında” Qanun vətəndaşın aylıq dolanışığı üçün tələb olunan məbləği müəyyən edir. Deməli, vətəndaşın krediti qaytara bilməsi üçün gəliri həmin məbləğdən çox olmalıdır. Lakin banklar krediti verərkən əksər hallarda buna göz yumub. Yəni vətəndaşın banka təqdim etdiyi əmək haqqı arayışından açıq-aşkar görünüb ki, özünün və himayəsində olan şəxslərin yaşayış minimumunun təmin edilməsi şərti ilə krediti ödəməsi qeyri-mümkündür. Buna baxmayaraq, bank krediti verib. Burada iki haldan biridir. Birinci hal odur ki, banklar “Yaşayış minimumu haqqında” Qanunu qəbul etmiş prezidenti və Milli Məclisi yalançı hesab edir. Yəni dövlət deyir ki, vətəndaşın aylıq dolanışığı üçün filan qədər məbləğ zəruridir, banklar isə etiraz edir ki, xeyr, bu, həqiqətə uyğun deyil və vətəndaşlara həmin məbləğ lazım deyil. İkinci hal isə odur ki, banklar vətəndaşların yaşayış minimumu tələbini qəbul edir, lakin Mərkəzi Bankla hesablaşmır. Yəni qaydaların tələbini kobud şəkildə pozaraq vətəndaşın krediti qaytara bilməsi qabiliyyətsizliyini nəzərə almır. Bilmirəm, hansı bankda bu iki haldan hansısı mövcuddur. Təkcə onu bilirəm ki, hər birinə görə banklar cəzalanmalıdır, ən yaxşı halda kreditin batması ilə".




**Ekspert həmçinin qeyd edib ki, borclu vətəndaşlar şikayət etməlidirlər:** “Banklar deyir ki, borclu vətəndaş və onun ailəsi acından ölsə belə, onun maaşının 50 faizi tutulmalıdır. Tutaq ki, ailədə ər, arvad və üç uşaq var. Yalnız ər işləyir. Əmək haqqı da 400 manatdır. Banka 10000 borcu var. Onun 200 manatı tutulmalıdır? Banklar deyir ki, bəli. Mən isə deyirəm ki, yox, çünki əmək haqqı ailəsinin yaşayış minimumunu təmin etmir. Buna görə də həmin borclu vətəndaşa tövsiyə edirəm ki, prezidentə, Milli Məclisə, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə, Ombudsmana və nəhayət, məhkəməyə müraciət etsin ki, əmək haqqına dəyməsinlər, ailəsini dolandıra bilsin. Konstitusiya Məhkəməsinin may qərarını xatırlayaraq, istisna etmirəm ki, banklar yenə də məsələni tez-bazar Konstitusiya Məhkəməsinə çıxaracaq ki, problemi kökündən və birdəfəlik həll etsinlər. Konstitsuiya Məhkəməsi də yəqin yenə də bankların ”batarıq, çökərik, ölərik" çağırışlarına biganə qala bilməyib onların xeyrinə qərar verəcək. Mayda da məhkəmə bankların təzyiqi altında konstitusiyaya zidd olaraq dollar kreditlərinin qanuni hesab edilməsi haqqında qərar vermişdi. Amma banklar tələsməsin. Çünki necə ki, konstitusiyanın may qərarı banklara heç nə vermədi, əhali onsuz da kreditləri ödəmir, bu qərar da heç nə verməyəcək. Bu qərar sadəcə vətəndaşları qeyri-rəsmi işləməyə təhrik edəcək ki, təki gəliri banka çatmasın. Vətəndaşın başqa yolu da var: dost-tanışı ilə fiktiv borc müqaviləsi bağlayar, onlar da verər onu məhkəməyə və udar. Bu halda vətəndaşın maaşının yarısı bankla həmin şəxslər arasında bölünər və banka yenə az pul çatar. Nəhayət, ən pis halda vətəndaş sadəcə boşanacaq. Ona görə ki, bankların sevdiyi “İcra haqqında” Qanunun 75-ci maddəsinə əsasən bu halda uşaqlarına ödəməli olduğu aliment ondan birinci növbədə tutulmalı olacaq və banka heç nə, yaxud cüzi məbləğ çatacaq".

**Ə.Həsənovun sözlərinə görə, banklar onun fikirlərini kreditlərin qaytarılmamasına çağırış kimi təqdim edir:** “Çünki hüquqa və mənəviyyata əsaslanan savadlı cavab vermək üçün resursları yoxdur. Halbuki mən həmişə demişəm: borc qaytarılmalıdır. Lakin vətəndaş borcu qaytara bilmirsə, kredit batmalıdır. Qabaqcıl ölkələrin təcrübəsi də bunu təsdiq edir. Vətəndaşa psixoloji təzyiq etmək, ailəsini pulsuz qoymaq, onları intihara təhrik etmək, xəstələndirmək olmaz. Digər tərəfdən də bizim banklar kreditlərinin bir hissəsinin batmasına layiqdir. Əvvəla, ona görə ki, problemli kreditlərin əksəriyyəti əhaliyə verilən kreditlər deyil, biznesə verilən kreditlərdir. Həmin problemləri də əsasən bank sahiblərinin və idarəçilərinin korrupsion əməlləri törədib. Faktiki olaraq əmanətçilərdən cəlb etdikləri həmin pulları oğurlayıblar. Əhalinin kreditlərinə gəldikdə isə banklar insanları bir çox halda aldadıb”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

# 2016 ASAN idarəçilik modelinə keçid ili olacaq?

**Ölkə prezidenti İlham Əliyevin 13 iyul 2012-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması Azərbaycanda yeni, müasir və vətəndaşların məmnun qaldığı idarəçilik modelinin ortaya çıxması ilə nəticələndi.**

ASAN xidmət dövlət orqanlarında şəffaflığın artırılmasının, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaların tətbiqi ilə göstərilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara əməl edilməsinin bu ölkədə qısa müddətdə mümkün olduğunu ortaya çıxardı. Agentliyin yaradılması “vətəndaş-dövlət qulluqçusu” münasibətlərinin inkişafı, vəzifəli şəxslərdə yeni düşüncə tərzinin və fəaliyyət üslubunun formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, eyni xidmətləri bir neçə dövlət orqanı göstərdikdə onlar arasında sağlam rəqabət mühiti yaranır ki, bu da korrupsiyanın, süründürməçiliyin qarşısını almağa və vətəndaş məmnunluğunun təmininə səbəb olur. Bu baxımdan ASAN idarəçilik modelinin tətbiqi arealının genişləndirilməsinə ehtiyac duyulur. Prezident İlham Əliyev də son vaxtlar çıxışlarında bu modelin uğurundan və digər sahələrdə də istifadə olunmasının vacibliyindən danışıb. 2016-cı ildə ölkədə əksər sahələrdə ASAN xidmət idarəçilik modelinə keçidin mümkün olacağının anonsu verilib.



**Fazil Mustafa:**
“Bu modeli tədricən əksər strukturlarda tətbiq etmək lazımdır”



**Zahid Oruc:**
“Ya hökumət ASAN-laşacaq, ya ASAN xidmət hökumətləşəcək”

Milli Məclisin deputatları da belə hesab edir ki, bu model əksər dövlət və hökumət strukturlarında tətbiq edilməlidir. **Deputat Fazil Mustafa** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, ASAN xidmət idarəçilik modeli Azərbaycan şərtlərində ən yaxşı modellərdən biridir. ASAN xidmət modeli ilə yeni bir məmur tipi Azərbaycan cəmiyyətinə təqdim olunur. Hətta cəmiyyət bir qədər təəccüblənir ki, belə də məmur ola bilərmiş: “Beləliklə, artıq insanların nəzərində insanlarda xidmət səlahiyyətini bilən, davranış etikasını gözləyən məmur obrazı formalaşır. Ona görə də ASAN xidmət modelini tədricən əksər strukturlarda tətbiq etmək lazımdır. Ölkə prezidenti də bu barədə çıxışlarında bildirib. Bu məsələdə prezidentin iradəsi budur ki, ümumiyyətlə bürokratik məhdudiyyətlər tam ortadan qalxsın. Adi işlərini həyata keçirmək istəyən vətəndaşlar dövlət qurumlarından narazı geri qayıtmasınlar. Amma ASAN xidmət idarəçilik modelinə müqavimət də var. Müəyyən qurumlar ənənəvi idarəçilik üsulundan qazanc mənbəyi kimi istifadə etməyə çox meyli olurlar. Bu, bir qədər problemlər yaradır. Ona görə də ASAN xidmət modelinin müəyyən strukturlara tətbiqi bir qədər çətin olur. Ancaq bütün hallarda hesab edirəm yəqin ki, ASAN xidmət modeli Azərbaycanda inkişaf edən templə gedəcək”.

**F.Mustafa onu da dedi ki, nə qədər müsbət olsa da sözügedən modelin birdən-birə bütün dövlət qurumlarında tətbiqi müəyyən fəsadlar da yarada bilər:** “Bəzi sahələr var ki, ASAN modelə keçməsi bir az çətin məsələdir. Belə sahələrdə ASAN xidmətə keçilməsi olmasa da ASAN idarəçilik modeli idarəetmədə tətbiq oluna bilər. Məsələn, məmurun etik davranış qaydaları, sənədləşmələrin, müraciətlərin elektron modelinin tətbiqi vacibdir. Gömrük və vergi orqanları kimi strateji strukturlarda ASAN xidmət idarəçilik modeli tədricən tətbiq edilə bilər. Artıq bu strukturlarda müəyyən funksiyaların ASAN xidmətə verilməsi başlanıb. Bütün sahələrdə ola biləcək monopolyanı yığışdırmaq lazımdır. Bütün bu məsələləri kompleks həll eləmək lazımdır. Məsələyə fundamental baxış dəyişməlidir. Əgər bu olarsa, qısa müddətdə Azərbaycan iqtisadi cəhətdən insanların rahat çalışa bildiyi bir ölkəyə çevrilə bilər".

**Deputat Zahid Oruc isə qeyd etdi ki, bütün keçmiş sovet idarəçiliyində olmuş ölkələrin qarşısında indi ASAN idarəçilik modelinə keçmək zərurəti dayanır:** “Maydan hərəkatlarından və inqilablardan keçmiş Ukraynanın özü bu gün bu cür islahatların zərurətini qeyd eləməkdədir. Söhbət təkcə idarəçiliyin asanlaşması, əlçatanlığı mənasında deyil, daha artıq dərəcədə bürokratizmdən xilas olmaqdan gedir. Gerçəkdən də Azərbaycan insanının xeyli dərəcədə enerjisi müxtəlif bürokratik maneələri və qanunsuz tələbləri aşmağa gedəcəksə, Qarabağ uğrunda vuruşmağa hal qalmayacaq. ASAN xidmət modeli ölkə başçımızın inqilabi layihəsi idi və cəmiyyətdə alındı, baş tutdu, idarəetmə sistemində özünə yer qazandı. Göründü ki, bu mümkün imiş. Bir çoxlarında sanki belə təsəvvürlər var ki, ASAN xidmətdə işləyənlər yəqin hardansa başqa ölkələrdən gətiriliblər, ya da başqa ölkələrdə peşəkar biliklərə yiyələniblər. Belə deyil. Həmin insanların bir çoxu əvvəlki iş yerlərindən qovluqlarını götürüb gəliblər ASAN xidmətə. Gəlib burada əvvəlki iş yerlərindəkindən fərqli şəkildə işləyə bildiklərini ortaya qoyublar. ASAN xidmət modeli idarəetmə sistemində mövcud olan mənfi tendensiyaları sındırmağın ən yaxşı aləti oldu. Ona görə də bu model getdikcə əksər strukturlarda tətbiq olunmalıdır. Bu modelin tətbiqi rüşvəti, süründürməçiliyi, bürokratiyanı aradan qaldırır. Ölkə prezidenti təsadüfən bu modelin genişləndirilməsinin vacibliyindən danışmır. Odur ki, mən obrazlı şəkildə deyirəm ki, ya hökumət ASAN-laşacaq, ya ASAN xidmət hökumətləşəcək. Bu, qaçılmaz bir reallıqdır”.

❑ Etibar SEYİDAĞA

# Pərviz Həşimli həbsində adı keçən MTN-çilərin cəzalandırılmasını tələb edir

## Məhbus jurnalist aidiyyəti orqanlara müraciət edib; onun işi əfv sərəncamından sonra Avropa Məhkəməsinə göndərilə bilər

**Yeni il qabağı yayılan əfv xəbərləri ilə bağlı azadlığa çıxacağına ən çox ümid bəslənilən məhbuslardan biri də “Bizim Yol” qəzetinin əməkdaşı Pərviz Həşimlidir. Bu il oktyabrın 17-də başlayan “MTN inqilabı”ndan sonra jurnalistin həbsxana həyatına son veriləcəyi gözlənilirdi.**

Belə ki, P.Həşimlinin həbsini həyata keçirən şəxslərin əksəriyyəti ya vəzifələrindən azad olundular, ya da həbs edildilər. Lakin oktyabrın 27-də şikayətinə baxılan Həşimlini Ali Məhkəmə yenidən həbsdə saxladı. Bundan sonra əsas ümidlər Yeni ilə bağlandı.

P.Həşimlinin vəkili Bəhruz Bayramov hüquqlarını müdafiə etdiyi şəxsin həbsində əli olan, iştirak edən şəxslərin ifşa olunduqlarını söylədi: “Pərviz bəyin azadlığa çıxacağına çox inanıram. Çünki MTN rəhbərliyi 17 oktyabrda vəzifəsindən azad olundu. O zaman hələ həbslər tam başlamamış, onun işini aparan istintaq orqanının rəhbəri vəzifəsindən azad edilməmişdi. Ola bilsin ki, hələ də təsir dairələri qalır. Bütün bunlara baxmayaraq, gözləntilərimiz böyükdür. Çünki qanunsuz həbsi həyata keçirən şəxslər ifşa olunaraq, işdən azad ediliblər. Bir çoxları da həbs olunublar. Bu baxımdan Pərvizin azadlığa buraxılacağına çox inanıram. Onun işini hələ Avropa Məhkəməsinə göndərməmişik. Əfv sərəncamını gözləyirik. Qərar verilsin, sonra buna uyğun addımlar atacağıq. Çünki ümidlərimiz böyükdür. Müsbət qərarın veriləcəyinə inanırıq. Onunla sonuncu dəfə şənbə günü telefon əlaqəsi saxlamışıq. Özünün də azadlığa çıxacağına inamı tamdır. Onu həbs edənlər ən yaxşı halda işdən azad olunublar. O, qanunsuz həbsi ilə bağlı aidiyyəti orqanlara ərizə ilə müraciət ünvanlayıb. Həbsində adı keçən, əli olan şəxslərin cəzalandırılmasını tələb edir. Antiterror mərkəzinin azad olunan rəhbərinin, eləcə də işi aparan müstəntiq Elşən Musayevin və digərlərinin məsuliyyətə cəlb olunmasını tələb edir”.



**Əfv ərizəsi yazmasına baxmayaraq, hələ də həbsdə olan məhbuslardan biri də NİDA-çı gənc Ömər Məmmədovdur. Gənc məhbusun atası Əlyar Məmmədov oğlunun bu ayın sonunda azadlığa çıxacağına ümid edir:** “Ömərin ən çox azadlığa çıxmasına son aylarda baş verənlərdən sonra inanmışam. Leyla və Arif Yunuslar artıq azad olunublar. Hakimiyyətin məhbuslara qarşı münasibətində yumşalma hiss olunur. Ümid edirəm ki, Yeni ildə övladım daxil digər gəncləri də azad edəcəklər. Əfv yazmasının Ömərə kömək olacağını zənn edirəm. Şəxsən prezidentin özünə müraciət edib. Oğlum təhsili ilə məşğul olmalıdır. Təhsili yarımçıq qalıb”.

Qeyd edək ki, hazırda həbsxanalarda əfv yazmalarına baxmayaraq, cəzalarını çəkməkdə davam edən kifayət qədər siyasi məhbus var.

❑ Cavanşir ABBASLI



# “Prezident bu bayramda da insanları sevindirəcək”

## Məlahət İbrahimqızı: “Mən də əfv sərəncamını gözləyirəm”

**Prezident İlham Əliyevin Yeni il ərəfəsində əfv sərəncamı verəcəyi haqda xəbərlər dəqiqləşib. İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun yaydığı məlumata görə, onlar artıq məhbuslarla bağlı siyahını hazırlayaraq Əfv Komissiyasına təqdim ediblər.**

Əfv Komissiyasının üzvü, deputat Məlahət İbrahimqızı musavat.com-a açıqlamasında mövzu ilə bağlı bunları deyib: “Əfv cənab prezidentin səlahiyyətində olan məsələdir. Əfv Komissiyasında isə həmişə olduğu kimi, işlər davam etdirilir. Demək olar ki, ilin bütün aylarında bayram var. İnşallah, prezidentimiz bu bayramda da insanları sevindirəcək. Mən də əfv sərəncamını gözləyirəm. Çünki artıq adət etmişik ki, möhtərəm prezidentimiz hər zaman insanları sevindirməyi, humanist addım atmağı çox sevir. Yəqin ki, bu dəfə də elə olacaq”.

Qeyd edək ki, hazırda həbsxanalarda əfv yazmalarına baxmayaraq, cəza çəkən siyasi məhbuslar kifayət qədərdir. Bu sıraya NİDA-çı gənclər (Rəşadət Axundov, İlkin Rüstəmzadə, Rəşad Həsənov, Ömər Məmmədov, Əbdül Əbilov), “Bizim Yol” qəzetinin əməkdaşı Pərviz Həşimlini, hüquq müdafiəçisi Rəsul Cəfərov və başqalarını əlavə edə bilərik.

Eyni zamanda əfv ərizəsi yazmayan, amma cəzalarının 1/3-ni çəkən siyasi məhbusların da Yeni ildə azad olunacaqlarını ehtimal edənlər az deyil. Bu sıraya Müsavat başqanının müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqov, müsavatçı gənc Sirac Kərimli daxildir.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

# Ərdoğandan İsrailə ilginc barış mesajı - körpülər təzədən qurulur?

## Türkiyə prezidenti yəhudi dövləti ilə 5 il öncə korlanmış münasibətlərin bərpasını mümkün saydı: "Hamımızın buna ehtiyacı var"; iki ölkənin ortaq qaz maraqları və Rusiya təhdidləri köhnə müttəfiqlər arasında barış prosesini sürətləndirə bilər...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İsraillə bağlı kifayət qədər mühüm sayılacaq açıqlama verib. O, 5 il əvvəl minimuma endirilən əvvəlki əlaqələrin tam bərpasına tərəfdar olduğunu bəyan edib. Ərdoğanın sözlərinə görə, bu, həm Türkiyəyə və İsrailə, həm də Fələstinə və bütövlükdə regiona çox şey verə bilər.**

Türkiyə prezidenti İsraillə münasibətlər və onların normallaşması mümkünlüyünü Türkmənistan səfərindən qayıdarkən, təyyarədə jurnalistlərin bu mövzuda ona ünvanlandığı sualları cavablandırarkən şərh edib.

"Bizim İsraillə üç mövzumuz var - biz onlardan üzrxahlıq xahiş eləmişdik. Onlar bunu elədilər. Biz demişdik ki, kompensasiya gözləyirik *(2010-cu ildə Fələstinə humanitar yardım aparan "Mavi Mərmərə" gəmisinə İsrail xüsusi təyinatlıların hücumu zamanı öldürülən türk-müsəlmanların ailələri nəzərdə tutulur - S.S.)* Bu baş verrmədi. Əlavə olaraq biz Fələstinin blokadasının götürülməsini istəmişdik. İki sonuncu məsələ həllini tapmayıb. Mən bildirmişdim ki, əgər kompensasiya ödənilsə və embarqo götürülsə, biz normallaşma prosesi yolu ilə gedə bilərik" - deyib Türkiyə dövlət başçısı.

"Normallaşma prosesi bizə, İsrailə, Fələstinə, bütövlükdə regiona çox şey verə bilər. Regionun buna ehtiyacı var və orada məskunlaşan bütün xalqların maraqları haqda düşünmək zəruridir. Sülhün mümkün qədər tez bərqərar olmasına kömək eləmək gərəkdir" - əlavə edib Ərdoğan.



***

Xatırladaq ki, ötən həftə İsrailin milli infrastruktur, energetika və su resursları naziri Yuval Ştaynits İsrail qazının Türkiyəyə ixrac edilməsinin mümkün olduğunu söyləmişdi. Bunun ardınca Türkiyə KİV-ləri belə bir məlumat yaydı ki, "baş nazir Binyamin Netanyahu qaz nəqli ilə bağlı İsrailin bir neçə dövlətlə, o cümlədən Türkiyə ilə danışıqlar aparıldığını deyib".

Yerli KİV-lər onu da iddia eləmişdi ki, transmilli neft şirkətləri, o cümlədən bp Türkiyədə İsrail qazının təchizatına dair danışıqlar aparır. "Sabah" qəzetinin məlumatına görə, qeyri-rəsmi danışıqlar üç özəl şirkət səviyyəsində gedir.

Göründüyü kimi, prezident Ərdoğan əslində danışıqların getdiyini, tərəflər arasında təmasların olduğunu istisna eləməyib. Türkiyə liderinin bu yanaşması və yəhudi dövləti ilə bağlı son mesajı qardaş ölkənin Rusiya ilə münasibətlərinin kəskinləşməsi və özünə daha etibarlı energetik (elə həm də siyasi) tərəfdaşlar axtarması fonunda məntiqlidir və situasiyaya adekvat hesab edilə bilər.

***

Rəsmi Ankara artıq fərqindədir ki, Moskva ilk fürsətdəcə ona güc nümayiş etdirmək və "Su-24" insidentinə görə hansısa formada revanş götürüb zədələnmiş imicini bərpa eləmək niyyətindədir. Ötən saylarımızda da vurğulandığı kimi, mövcud vəziyyət yerləşdiyi mürəkkəb regionda Türkiyə üçün müttəfiqlərin önəmini sövq-təbii artırıb, onu dost-müttəfiqlərin sayını artırmaq imperativi qarşısında qoyub.

Onlardan biri də İsrail ola bilər. Təhlilçilər Türkiyə ilə Rusiya arasındakı gərginliyin Ankara-Təl-Əviv münasibətlərini istiləşdirəcəyini istisna eləmirlər. Ancaq bundan ötrü ən əvvəl Netanyahu ilə Ərdoğan arasında müəyyən siyasi uzlaşmaya ehtiyac var. İsrail analitiklərinə görə, baş nazir Netanyahu qısa zamanda Ankara ilə münasibətləri istiləşdirməyə çalışmalı, ardınca qaz xəttinin çəkilişi üzrə danışıqlar başlanmalıdır.

Onların qənaətincə, Türkiyə-Rusiya əlaqələri korlanandan sonra durumun iki ölkə arasındakı enerji anlaşmalarına təsirsiz ötüşməyəcəyi ortadadır. Belə olan halda, İsrail dövriyyəyə girməli, Türkiyə ilə qaz razılaşması imzalamalıdır. Analitiklər əmindilər ki, qaz-tranzit layihəsi baş tutsa, bu, 5 ildir Türkiyə ilə İsrail arasında yaşanan sərin münasibətləri də yumşalda bilər.

Hələlik Netanyahu ilə Ərdoğan arasında münasibətlər isti deyil. Xarici işlər nazirlikləri arasında təmaslar olsa da bu, hələ ki, liderlər səviyyəsinə keçməyib...

***

Sözsüz ki, iqtisadi bağlar siyasi bağları da möhkəmlətmiş olacaq. Regionda İsrail-Türkiyə müttəfiqliyinin bərpası isə Azərbaycanın da köklü maraqlarına cavab verir. Ən mühümü, bu, bölgədə Rusiyanın Türkiyə və Azərbaycan əleyhinə yeni ekspansionist planlarına qarşı çəkindirici amil rolunda çıxış edə bilər.

O ki qaldı Ərdoğanın yerinə yetirilməyən iki şərtinə, əslinə qalsa, varlı İsrail dövləti üçün 9 ailəyə 20 milyon dollar təzminat ödəmək və Qəzzanın blokadasını yumşaltmaq elə də çətin deyil. Amma qarşılığında götürüləcək iqtisadi-siyasi qazanc İsrail üçün qat-qat böyük görünür. Təbii ki, elə Türkiyə üçün də. Odur ki, keçmişdə ilişib qalmaq zamanı deyil...

❑ **Siyasət şöbəsi**

# TANAP sürətlə gerçəkləşir

## Azərbaycan-Türkiyə qaz boru kəməri layihəsinin sürətləndiyi bildirilir, ekspertlər bunun hər iki ölkə üçün sərfəli olduğunu vurğulayırlar

**Yaponiyanın tanınmış JIJI PRESS informasiya agentliyi Azərbaycan və Türkiyə arasında Trans-Anadolu qaz boru kəməri- TANAP layihəsinin sürətləndirilməsi ilə əlaqədar razılıq əldə olunması barədə məlumat yayıb.**

"Azərbaycan-Türkiyə qaz boru kəməri layihəsi sürətlənir",- adlı məqalədə bildirilir ki, Türkiyənin baş naziri Əhməd Davudoğlu bu yaxınlarda Bakıya səfər edərək Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb. Səfər çərçivəsində aparılan danışıqlar zamanı Azərbaycanın təbii qazını Türkiyə vasitəsilə Avropaya çatdıracaq TANAP layihəsinin sürətləndirilməsi barədə razılıq əldə olunub.

Bir neçə gün əvvəl isə Trans-Anadolu qaz boru kəməri (TANAP) şirkəti ilə "Trans-Adriatik" (TAP) boru kəməri şirkəti arasında tikinti zamanı əməkdaşlığa dair saziş imzalanıb. Bildirilir ki, sənəd həmçinin "Cənub" qaz dəhlizi layihəsinin dəyər zənciri boyunca qarşılıqlı birgə səylərin möhkəmləndirilməsini və iki boru kəmərinin bir-birinə qoşulması üçün tikinti işlərinin texniki dəqiqləşdirilməsini təmin etmək üçün məsuliyyəti nəzərdə tutur.

**TAP-ın icraçı direktoru Yan Bradşou deyib ki, son üç ildə TAP ilə TANAP layihələri üzrə birgə əməkdaşlığa dair mühüm işlər görülüb və hazırda hər iki layihə tikinti mərhələsindədir:** "Tikinti zamanı əməkdaşlığa dair saziş iki layihənin bir-birinə birləşməsi üçün vacib şərtləri özündə əks etdirir. Bu, bizim layihənin inkişafı üçün mühüm mərhələdir. Saziş Xəzər dənizinin "Şahdəniz-2" yatağından çıxarılan qazın nəqli infrastrukturunun plana uyğun həyata keçirilməsinə öz töhfəsini verəcək".

Qeyd edək ki, uzunluğu təxminən 870 kilometr olan TAP boru kəməri Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində TANAP-a birləşəcək. TANAP isə Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 21 vilayətdən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanacaq. Boru kəmərinin 2018-ci ildə istismara verilməsi planlaşdırılır. TANAP-la Avropaya 10 milyard, Türkiyəyə isə 6 milyard kubmetr Azərbaycan qazının nəqli nəzərdə tutulur. İlkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr olacaq kəmərin bu tutumunun 2023-cü ildə 23 milyard kubmetrə və 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.




"Cənub" qaz dəhlizinin ən uzun hissəsini təşkil edən TANAP Cənubi Qafqaz Boru Kəmərindən alacağı təbii qazı 2020-ci ilin əvvəlindən etibarən TAP boru kəmərinə qoşularaq Avropaya çatdıracaq. TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub" qaz dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (QSC) - 58 faiz, "Botaş" - 30 faiz və bp şirkəti - 12 faiz.

**Ankaradakı Bilkənt Universitetinin müəllimi, Türkiyə Mühəndislər Palatası enerji komissiyasının sədri Necdət Pamir isə APA-ya bildirib ki, təyyarə böhranından sonra hökumət qazı Rusiyadan deyil, Azərbaycandan və Qatardan almaq fikrindədir:** "Mən TANAP-ın Türkiyə üçün necə əvəzsiz bir layihə olduğunu bilən və o layihənin bir an əvvəl həyata keçməsi üçün hər cür dəstəyi verən adamam. Ancaq realist olmaq lazımdır. TANAP layihəsi vasitəsilə Azərbaycandan Türkiyəyə qaz 2018-2019-cu ildə veriləcək. Ona qədər biz Azərbaycandan ehtiyacımız olan hansı infrastruktur vasitəsilə qaz alacağıq? Və ya Qatarla maye qaz sazişi imzalandı. Sanki bir anda Rusiya qazımızı kəssə, biz Qatardan ehtiyacımız qədər maye qaz alıb anbarlarımıza doldura biləcəyik. Bu söhbətlərin heç bir ciddi əsası yoxdur... Baş nazirin Azərbaycana getməsini həmişə təqdirlə qarşılayıram. Ancaq Rusiya indiki halda qazı kəssə, biz Azərbaycandan ümid etdiyimiz qazı ala bilməyəcəyik, reallıq bundan ibarətdir. Bunun üçün lazımi infrastruktur çalışmaları tamamlanmalıdır. Müxtəlif mənbələrdən təbii qaz idxal etmək sahəsində həmişə qardaş Azərbaycandan daha böyük miqdarda qaz almağın tərəfdarı olmuşam. TANAP layihəsi vaxtında işə düşsə, bizim xaricdən asılılığımız bir miqdar azalacaq».

Ekspert Vüqar Bayramov musavat.com-a bildirib ki, TANAP-ın reallaşması üçün Azərbaycanla Türkiyə arasında anlaşma imzalanıb. Əsas məsələ layihənin inşasının sürətləndirilməsidir. TANAP kəməri vasitəsilə Azərbaycan mavi qazı Türkiyə bazarına çıxarılacaq. Daha sonra isə TAP layihəsi vasitəsilə Azərbaycan qazı Avropa bazarına çıxarılacaq. Əvvəlcə layihənin 2020-ci ildə istifadəyə verilməsi proqnozlaşdırılırdı. Türkiyə və Rusiya arasındakı gərginlikdən sonra artıq TANAP layihəsinin tezləşməsi və qısa zamanda, 2018-ci ilədək bu layihənin reallaşması müzakirə olunan məsələdir. TANAP layihəsi "Şahdəniz 2" fazasından nəql ediləcək qazın Avropa bazarına çıxarılmasını nəzərdə tutur və 16 milyard kubmetr qaz nəql ediləcək. Bundan 16 milyard kubmetri Türkiyəyə nəql ediləcək, digər 10 milyard kubmetri isə Avropa bazarına çıxarılacaq. Növbəti mərhələdə Avropa və Türkiyəyə satılan mavi qazın həcmində artımlar olacaq. İndiki məqamda bu, Türkiyə üçün vacibdir. İnşaatın sürətlənməsi Türkiyə üçün vacibdir. Çünki Türkiyə mavi qaza olan tələbatının təxminən orta hesabla 55 faizini Rusiyadan alır, qaz idxalında Rusiyadan asılıdır. Alternativ olaraq Türkiyə İran, Qətər və Azərbaycandan mavi qazı alır. Amma İranla anlaşma Türkiyə üçün uzunmüddətli dövrdə dayanıqlı hesab edilmir. Azərbaycan daha dayanıqlı, daha stabil mənbədir. Azərbaycan qazını Rusiya və İrana nisbətən daha ucuz qiymətə qardaş Türkiyəyə verir. O baxımdan layihənin reallaşması Türkiyə üçün vacibdir. Azərbaycan üçün də vacibdir. Çünki Azərbaycan daha qısa zamanda Türkiyə və Avropa bazarına çıxmaq imkanı qazanacaq. İndiki məqamda Azərbaycan çalışmalıdır ki, layihənin maliyyələşməsində Türkiyə aparıcı aparıcı tərəf olsun. Çünki TANAP-ın xərcinin ödənməsi üçün tələb edilən vəsaitin daha çox hissəsinin Türkiyə tərəfindən ödənilməsi Azərbaycan üçün daha məqsədəuyğundur. Bu, imkan verəcək ki, Azərbaycan daha az xərc çəkməklə öz mavi qazını Türkiyə bazarına çıxarsın. Bu, Türkiyə üçün daha maraqlıdır. Əgər tərəflər maliyyə tapılmasında təhlükə ilə üzləşməzsə, 2018-ci ildə TANAP-ın istifadəyə verilməsi realdır".

❑ **Röya RƏFİYEVA**



# Filin dişisi

Zamin HACI
zaminhaci@mail.ru

**Milli Təhlükəsizlik Nazirliyindən 250 nəfərə yaxın yarıtmaz işçi qovulmuşdu. 25 nəfərə yaxın general və polkovnik, ən aşağısı mayor rütbəsində "çekistlər" indiki şeflərinin keçmiş iş yerinə - zindana salınmışdılar. Ancaq xeyri olmurdu. Neft dünya birjasında düşə-düşə gedirdi və artıq bir bareli 36,6 dərəcə-dollardan aşağı olmaq üzrədir. Şair demişkən, "əllərin nə yaman soyuqdur, gülüm". Ölüm soyuğu iqtisadiyyatımızın meyitinə çökməkdədir.**

Bayaq şef yazdım, prinsipcə Mədət müəllim MTN-in tam şefi də sayılmazdı. Birinci müavin qoymuşdular. Bu, kadr islahatlarımızın və qarnı ağrıyan sistem islahatlarımızın keçid dövrünün xarakterik cəhətidir: hər hansı idarə müdiri vurulanda o idarəyə birbaşa rəhbər təyin edilmir. Xeyli müddət idarəni müavin, birinci müavin tipində bir zata tapşırırlar. Uzun müddət kəşfiyyat aparılır, kadrlar seçilir. Hazırda Rabitə və Yüksək Texnologiya Nazirliyimiz də beləcə müavin ümidinədir. Kanalizasiya lyuklarında əyləşib telefon naqilindən xalça toxuyan yüksək texnoloji rabitəçilərimiz nazirsiz qalaraq çox darıxırlar. Məncə onlar özlərinə rəhbər tələb eləsinlər. Ağlamayana məmə, həmçinin nazir verilmir. Yaxşı nazir, məməli nazirdir - atalar demişkən.

Nəhayət, dünən MTN üçün əcəl zəngi çalındı, idarə ortadan iki yerə bölündü. İndən belə bizim 2 çekist idarəmiz olacaqdır, Dövlət Təhlükəsizlik Xidməti (DTX) daxili kəşfiyyata, Xarici Kəşfiyyat Xidməti (XKX) isə xarici kəşfiyyata baxacaqdır.

Məncə, administrasiyada oturanlar ASAN xidmətdən çox şövqə gəliblər, xalqın xidmətçisi olmaqlarını hər addımda vurğulamaqla bir az təvazökarlıq edirlər, gərək təzə idarələrin adını "idarə", "nazirlik" kimi qoyardılar. Xarici Kəşfiyyat İdarəsi - bunun qısaltması da daha yaxşı səslənərdi. XKİ - elə bil amerikavari alınırdı. İndiki halda isə iki yeni dövlət idarəsinin qısa adlarındakı 6 hərfdən tam yarısı - 3 hərf "X" olmuşdur. Bu isə həm insanlarda "iks günü"nün yetişməsi ovqatını yaradır, həm də xırıldamaq, can vermək təəssüratları oyadır. Dilçilik İnstitutunun müdirinin ölməsi bax belə məqamlarda özünü göstərir. Nazirliyin hamısının adını çevirib xidmət qoysan sabah camaat "Motodrom"da "İş, çörək, Qarabağ!" şüarı ilə mitinqə çıxar. Millətin başını çox buraxmaq olmaz, dövlət gərək sərt üzünü göstərsin. Adicə ailədə ər arvadı döyməyəndə arvad fikirləşir yəqin daha məni sevmir, özgələr ilə, hansısa xarici qara qüvvələrlə aşnalıq edir.

Hər halda, olmayan yerdə bu da bir islahatdır, arzu edərdik başqa nazirliklər də parça-parça edilsin, sağ tikələri qulaqları boyda olsun, çünki millətimiz yalnız belə nicat tapacaqdır! Zarafat edirəm, qorxmayın, mən dövlətçilik hissləri güclü adamam. Mən hərdən özümdə elə dövlətçilik hissləri tapıram, heyran qalıram, deyirəm, görəsən, bunu indiyə qədər necə gizli saxlamışam. Məni ən çox narahat edən odur ki, hazırda bir çox dükanlar toyuq yumurtasını hər alıcıya 10 dənədən artıq satmır. Deyirlər, yumurta azdır, gərək hamıya çatsın. Hətta bir dükanda kassanın yanında 20 yumurtanı əlimdən alıb böldülər, dedilər bunun yarısı xarici kəşfiyyat...

Nəsə mövzu qarışdı. Sözüm odur ki, niyə belə durum yaranıb? Toyuqlar yumurtlamır, yoxsa bunda da Eldar Mahmudovun dəstəsinin əli var? Yumurta mövzusunda təzədən, dövlət səviyyəsində beynəlxalq konfrans keçirməliyikmi? Ümidvaram bu suallara Kənd Təsərrüfatı Nazirliyi ətraflı cavab verəcəkdir. Əks halda, gərək onu da iki yerə bölüb Kənd Nazirliyi və Təsərrüfat Xidməti eləyək.

Ən vacib sual isə açıq qalır: indən belə dükançılar pulu hansı idarəyə aparmalıdırlar? Yoxsa hər ikisinə? Birdən neftin qiyməti qalxıb Çovdarov bəraət alsa, fağırı hansı xidmətə bərpa edəcəklər?

# "Bəli, bu gün hakimiyyətə alternativ yoxdur"

## Ərəstun Oruclu: "İstəmərəm ki, mənim fəaliyyətimə görə kimlərsə tutulsun"



**Son günlər ölkə gündəmi heç vaxt olmadığı qədər qaynar və gərgindir. MTN-də baş verən həbslərin, Nardaran olaylarının, qalmaqalların "istisi" soyumamış, Neft Daşlarında baş verən yanğın ölkədəki əhvalı daha da gərginləşdirdi.**

"Şərq-Qərb Araşdırmalar Mərkəzi"nin rəhbəri Ərəstun Oruclu ilə söhbətimiz bu mövzuları əhatə etdi. Onunla müsahibənin üçüncü, sonuncu hissəsini təqdim edirik:

***(əvvəli ötən saylarımızda)***

***- Azərbaycan prezidentinin Türkiyə lehinə Bakıda verdiyi mesajlar da bu qəbildəndir? Bu, NATO dövlətinə verilən dəstək idi, yoxsa bir qardaşa verilən dəstək?***

- İlk növbədə bir qardaş dövlətə verilən dəstək idi. Rəcəb Tayyib Ərdoğan hökuməti haqda mənim özümün də çox tənqidi fikirlərim olub. Lakin biz yenə də görürük ki, ən çətin məqamda bizim yanımızda olan Türkiyədir.

***- Belə başa düşmək olarmı ki, Rusiya ilə münaqişə fonunda Ərdoğana münasibətiniz bir qədər dəyişib?***

- Burda məsələnin iki tərəfi var. Hesab edirəm ki, Rusiyanın təyyarəsini vurmadan da ötüşmək olardı. Çünki bunun fəsadlarını görməmək mümkündür.

***- Amma bu təyyarəni vurmasaydı, heç nə olmayacaqdı.***

- ...Digər bir tərəfdən isə israilli ekspert Avraam Şmulleviç çox gözəl açıqladı ki, "Putin özünü Piterin dalan uşağı kimi aparır, siyasətə dalan əxlaqı gətirir. Amma unudur ki, bu əxlaqa görə yolundan çıxanın dişini sındırırlar". Əslində bu, oldu. Diqqət edin, son 6 ayda Rusiya hərbi təyyarələri neçə dövlətin sərhədini pozub: Latviya, Estoniya, Danimarka, Böyük Britaniya, Polşa, İspaniya. Bunların hamısı NATO dövlətləridir. Və üçüncü dəfə Türkiyənin. Bunlara hardasa cavab tədbiri görülməli idi. Bu, həm də o fonda baş verdi ki, Rusiya guya İŞİD-i bombalayır. Suriyadakı müxalifət də, hər kəs də iddia edir ki, əslində Rusiyanın bombaladığı İŞİD-ə qarşı döyüşən türkmənlər və digərləridir. Bir tək kürdləri bombalamağa cəsarət eləmir, onlardan özünə düşmən qazanmaq, PKK rıçaqını itirmək istəmir. Bu fonda Türkiyənin yanında Azərbaycanın olması tamamilə məntiqlidir. Eyni zamanda Türkiyə ilə bir yerdə olmaq daha çox bizə lazımdır. Rusiyanın bizdən nə istədiyi məlumdur. Rusiya Ermənistanda hərbi gücünü artırır. Rusiya bizə dost, müttəfiq, tərəfdaş deyil. Belə olan halda Qərblə korlanmış münasibətlər fonunda bizim arxamızda dayanacaq yeganə qüvvə Türkiyədir, bizim körpümüz Türkiyədir.

***- Oyun və təhlükə böyüdükcə sanki Türkiyə, eləcə də Azərbaycan hakimiyyətinə tənqidiniz bir az yumşalıb. Bu, təhlükənin qloballığındandır, Azərbaycana qarşı oynanan oyunun böyüklüyündəndir, yoxda sizdə nəsə fikir dəyişikliyi baş verib?***

- Prioritetlər var. Öncəlik dövlətdir.

***- Dövlət bu qədərmi təhlükədədir?***

- Bəli, təhlükədədir. Mən hesab edirəm ki, bu gün dövləti xilas etmək istəyiriksə, birinci pis-yaxşı, mövcud sabitliyi qorumalıyıq. İkincisi, islahatlara gedilməlidir. Çünki qarşıdan ağır il gəlir. Neft qiymətləri, üstəlik, dünyada iqtisadi depressiya davam edir...

***- Yəni hakimiyyət dəyişikliyini istəmirsiz...***

- Hakimiyyətdə kimi kimlə dəyişəcəyik? Siz mənə başqa bir sabit komanda göstərin ki, bu komandanı hazırkı ilə dəyişmək mümkün olsun.

***- Yoxdurmu alternativi?***

- Mən keçən dəfə də bunu demişəm. Bir sıra hallarda sərt tənqidə məruz qaldım. Bu dəfə ondan da çox tənqidə məruz qalmağa hazıram. Bəli, bu gün alternativ yoxdur. Dağılıb, dağıdılıb, səbəbləri qoyuram bir qırağa, nəticəni deyirəm.



### "Rauf Mirqədirov da yaxın zamanlarda çıxacaq"

***- Bu gün Azərbaycanda iqtidar dəyişsə nə olar? Xaos?***

- Bəli, xaos olar.

***- Hansı modeldə? İspaniya, Misir, Liviya? Ərəb ölkələri modeli, yoxsa Ukrayna?***

- Ərəb ölkələri xaosu. Ukrayna modeli burda mümkün deyil. Ukrayna modelində narazı oliqarxiya vardı, hakimiyyətin içində bir parçalanma baş vermişdi və bu koalisiyaya qoşulan müxalifət vardı. Aşağı-yuxarı, güclü müxalifət vardı. Gəlin baxaq ki, Azərbaycanda bu model üçün hansı şərtlər var? Birincisi, hakimiyyətdə o kəslər yoxdur ki, hansısa kritik məqamda məsuliyyəti üzərinə götürsün...

***- Bəs siz özünüz niyə partiya yaratmırsız?***

- *(zarafatla)* Partiya yaratmaq ciddi işdir...

***- Sizin kifayət qədər tərəfdarınız ola bilər. Bunu düşünmüsüzmü?***

- Düşünmüşəm. Təkliflər də var. Mən istəmərəm ki, mənim fəaliyyətimə görə kimlərsə tutulsun.

***- Mütləqmi tutulma olacaq?***

- Olacaq. Siyasətə atılırsansa, bu, mümkündür.

***- Amma sadəcə bir ekspert, rəy verən kimi iştirak etmək də sıxıcı deyilmi?***

- Sıxıcıdır. Amma burda daha çox fayda verə bilərsənsə, burda olman daha uyğundur.

***- Bildiyimiz qədər, sizinlə tez-tez görüşürlər. Xarici ölkə səfirlikləri, təmsilçiləri. Bunların bəziləri ictimailəşir. Başqa hansı görüşləriniz olur? Hakimiyyət təmsilçiləri də sizinlə görüşürmü? Və ya fəaliyyətini zəiflətmiş müxalifət liderləri hansısa formada sizinlə görüşüb fikirlərinizi alırmı?***

- Dövlət yetkililəri ilə hər hansı görüşüm olmur. Müxalifət təmsilçilərindən ancaq İsa Qəmbərlə görüşlərimiz olur. O da müntəzəm olmur, hərdən. Mənimlə görüşməyə daha çox maraq göstərən gənclər təşkilatlarıdır. Media üçün hər zaman açığam. Media hər zaman mənim fikirlərimdən yararlanmağa çalışır, mən də onlarla əməkdaşlığa hazıram. Çünki mediaya mən tribuna kimi baxıram.

***- Dediniz ki, MTN rəhbərliyinin dəyişməsi ölkənin xarici siyasətində bir dəyişməyə gətirib çıxarıb. Bu dəyişiklik daxili siyasətdə nələrə gətirə bilər? Anlaşma, barış mühitinin yaranması, bir sıra məchul cinayətlərin açılması... mümkündürmü? Doğrudur, indiyə qədər bilinməyən bir çox gizlinlər üzə çıxdı artıq - insanların başına torba keçirilib oğurlanması, biznesmenlərin şantaj edilməsi... Amma bilinməyən çox şey var: Elmar Hüseynovun qətli, Rail Rzayevin snayperlə öldürülməsi.***

- Sadaladığınız cinayətlərə Neft Akademiyasındakı terroru da əlavə edək.

***- O da siyasidir?***

- Bir nəfərin işi deyildi, əlbəttə. Hesab edirəm ki, indiki mərhələdə bu cinayətlərin açılacağını gözləmək lazım deyil. Ona görə ki, bunların bir hissəsində geosiyasi faktorun rolu var. İndiki həssas geosiyasi durumda heç kimin əlavə qıcıq yaratmaq marağı yoxdur. Nə müxalifətin, nə hakimiyyətin, nə heç birimizin...

***-Amma müəyyən zaman keçdikdən, dəngələr dəyişdikdən sonra mümkündürmü?***

- Zaman keçdikdən sonra açılacaq. Ola bilsin ki, həmin cinayətlərdə iştirak etmiş adamlar başqa cinayətlərinə görə cəzalandırılsınlar. Siyasətdə belə bir təcrübə də var. Amma burda incə bir məqam var. Artıq müəyyən siyasi loyallaşma, liberallaşma əlamətləri görünür. Bir ay əvvəl heç kim təsəvvür edə bilməzdi ki, Yunuslar həbsdən azad olunacaqlar.

***- Bunun davamı gələcək, sizcə? "MTN işi" ilə bağlı tutulan jurnalistlər, fəallar da azadlığa çıxacaqmı?***

- Düşünürəm ki, bu iş bağlanmağa doğru gedir. Xüsusilə də casusluq ittihamı var idi, o, ayrıca maddə kimi ayrıldı, istintaqı getdi. Zamanında buna oxşar bir şey Əli İnsanov və Fərhad Əliyevin işində "dövlət çevrilişi" ilə bağlı olmuşdu. 10 ildir onun təhqiqatı gedir və ortada bir şey yoxdur. Digər bir tərəfdən, biz belə bir şey gördük ki, Dövlət Departamentinin nümayəndələri gəldi Azərbaycana. Bu zaman Tehranda qaz sammiti keçirilirdi, İlham Əliyevə dəvət vardı. Amma məhz həmin gün İlham Əliyev departament nümayəndəsi ilə görüşməyə qərar verdi. Bura mən Obama ilə görüşü əlavə edərdim. Düşünürəm ki, artıq ən azı əvvəlki istiqamətə dönüş əlamətləri görünməkdədir. "Bank of Amerika" bankı Azərbaycanın maliyyə bazarı ilə bağlı tövsiyələrini verdi. Ola bilər ki, hansısa əməkdaşlıq gözlənilir.

***- Müsbət tərəfləri dediz. Amma maraqlıdır, köhnə rəhbərliklə cəmiyyətdə, insanlarda yaranmış MTN xofu, bu qurumla bağlı mənfi imic aradan götürülə bilərmi?***

- Xof ayrıdır, mənfi imic ayrı. Xof belədir ki, o vaxt MTN-də olan qətllər, işgəncələr haqda hər kəs bilirdi. "Nida"çıların məhkəməsində deyilənlər yadınızdadır yəqin ki. Rauf Mirqədirovun şərlənərək həbs olunması da həmçinin. 18 ay onun istintaqı getdi. İndi məhkəmə keçirirlər, amma məhkəməyə çıxaracaq heç nələri yoxdur. 20 gündən bir proses keçirib, sonra təxirə salırlar. Niyə? Çünki orda cinayət tərkibi yoxdur. Bunlar qapadılmağa doğru gedir. Düşünürəm ki, Rauf Mirqədirov da yaxın zamanlarda çıxacaq. Xof da dağılmaqdadır. Amma burda başqa bir şey var. Etimadın bərpa olunması üçün həqiqətən gərgin iş lazım olacaq. Xüsusi xidmət orqanları insanlarla bir mənbə olaraq işləyir. İndi MTN bir insana əməkdaşlıq üçün yaxınlaşanda həmin insan düşünəcək ki, 5-6 ildən sonra onu bu işə görə məhkum etməyəcəklərmi, cinayətə cəlb olunmayacaq ki? Belə məqamlar var. Mənə elə gəlir ki, artıq Azərbaycandakı mövcud agentura şəbəkəsi deşifrə olunub.

***- Ümumiyyətlə, sizin təklifiniz varmı Azərbaycanın təhlükəsizlik sistemi ilə bağlı? Paket halında varmı?***

- Bunu bu dəqiqə təsəvvür etmək qeyri-mümkündür. Dünyada məlum praktika var. Amma bu praktika - xüsusi xidmət orqanlarına üç-dörd pilləli nəzarət praktikası hüquqi dövlət və institusional idarəçilik şəraitində mümkündür. Azərbaycanda isə bu idarəçilik yoxdur, qanunun aliliyi təmin olunmayıb.

***- Mədət Quliyevin bir açıqlamasını oxudum ki, bu günə qədər 250 MTN əməkdaşı işdən çıxarılıb. Nazir müavini qeyd edib ki, ümumiyyətlə, nazirlikdə əməkdaşların sayı çoxdur...***

- Bəli, ştat şişirdilib.

***- Sizcə, çox deyilmi o qədər kadrın çıxarılması? Faktiki buraxmaq deyilmi nazirliyi?***

- Orda minlərlə kadr toplayıblar. Əlavə əməkdaşlar qəbul ediblər. O qədər şişirdiblər. Bütün idarələr dönüb olub baş idarə. Vaxtilə bir-iki generalı olan nazirliyin Eldar Mahmudov dönəmində 26 generalı vardı.

***- Onların neçəsi işdə qaldı?***

- Hələlik bildiyim qədər 11-12-si kənarlaşdırılıb. 26 general... ağlasığmaz bir şeydir. İlk növbədə qurumu hərbiləşdirilmiş statusundan çıxarmaq lazımdır. Bu, çox vacibdir.

***- Yeni nazir bir sual kimi insanları düşündürür. Sizdə də bu sual varmı?***

- Var, amma sual çox məchulludur, cavabı yoxdur. Mən düşünürəm ki, indiki nazir əvəzi funksiyasını yerinə yetirən, birinci müavin postunda oturan Mədət Quliyevin fəaliyyətindən çox şey asılıdır. Əgər onun fəaliyyəti düzgün qurulacaqsa, MTN-in həm reputasiyası, həm iş qabiliyyəti bərpa olunacaqsa, istisna etmirəm ki, onun özü də qala bilər. *(Müsahibə prezidentin məlum qərarından öncə götürülüb - red.)*

***- Bu, onun üçün çox ağır yük deyilmi? Uçub dağılmış bir evi yenidən necə qursun?***

- Yəni o, ağır yükün ən ağır hissəsini üzərinə götürüb. Ağırlıq mərkəzi bu gündür.

***- Hər kəs, eləcə də siz deyirsiz ki, bu ifşa olunan dəstənin əlində böyük kompromat baqajı var. Bu, dövlətə, dövlət rəhbərliyinə təhlükə deyilmi? Bu kompromatlar hardansa çıxa bilərmi? Kimdə təminat var ki, bunların özünün nəzarət altına alınmaları ilə o kompromat da nəzarət altına alındı? Bununla Azərbaycanı nə təhlükə gözləyir?***

- Hər halda, ağıllı kəşfiyyatçılar bunu belə edir. Bu cür kompromatları hardasa bir yerdə yerləşdirir və özünü sığortalamaq, tutulmamaq, daha çətin duruma düşməmək üçün o kompromatları başqalarının əli ilə ortaya atır, özünü qoruyur.

***- İndi Eldar Mahmudovun həbs olunmasının səbəbi bu ola bilərmi? Əlində ciddi kompromatlar olduğu üçün təhlükəsizliyini təmin etmə ehtimalı varmı?***

- Mən düşünmürəm ki, bu kompromatın nədən ibarət olması artıq siyasi hakimiyyətə də məlumdur.

***- Amma bu, üzə çıxarılmır axı. Eldar Mahmudov bunu kənara çıxara bilərmi? Ölkə xaricinə, ölkə daxilinə...?***

- İnanmıram. Bir təhdid aləti yoxdur.

***- Hansısa bir dövlətin əlinə düşə bilər?***

- Düşə bilər. Amma düşünmürəm ki, hansısa dövlət onu bu şəkidə istifadə edə bilər. Bir çox şeylərin üzə çıxmayacağına əminəm. Amma nələrsə çıxa bilər. Bilirsiz, ifşa olunan MTN rəhbərliyi özlərinə çox əmin idi. Ona görə də inanmıram ki, bu ehtiyat variant haqqında düşünsünlər.

***- İlin yekunudur. İl ağır oldu, çoxsaylı qəza və terrorlar, gizli qəsdlərlə zəngin oldu. Ölkənin gündəmi ciddi şəkildə qarışdı. 2016-dan azərbaycanlılar nisbətən sakitlik gözləsinlər, yoxsa daha gərgin olacaq?***

- Daha gərgin olacaq. İqtisadi depressiya var. Biz gələn ilə bu illə müqayisədə 30 faizdən yuxarı ixtisar olunmuş, kiçilmiş büdcə, 2015-ci ildən də aşağı neft qiymətləri ilə gedirik. Qeyri-neft sektoru olduqca aşağı səviyyədədir. Bu şəraitdə biz hələ bu ilin sonuna qədər növbəti devalvasiya dalğası ilə üzləşə bilərik. Bütün hallarda bu, gələn ilin zənbilinə təsir edəcək. Bu baxımdan ən optimal yol gömrük və vergi sistemini liberallaşdırmaqdır. O büdcə ilə maaşların artımına nail ola bilmərik. Ona görə də qalır ikinci yol - qiymətləri ucuzlaşdırmaq. Bunun yolu isə gömrük sistemindəki mövcud durumu aradan qaldırmaqdır. Düşünürəm ki, bunu edəcəklər.

***- Mümkündürmü ki, dövlət idarəçilik sistemi bütünlüklə Asan modelinə keçsin? Prezident iki dəfə bunun anonsunu verib.***

- Mərhələli şəkildə mümkündür. Amma bu, bir ildə olunacaq bir iş deyil. Bu gün bizim daxili bazarın böyük bir həcmini sabitləşdirməyin, qiymət artımının qarşısını almağın bir tək yolu gömrük sistemində islahatdır. Bu istiqamətdə müəyyən addımlar atıldı - ölkəyə gətirilən müəyyən həcmdə malların rüsumdan azad olunması. Deyilənə görə, buna əməl olunmur hələ ki. Sahibkarlardan belə məlumat almışam. Amma riayət olunmaması da hardasa ciddi addımların atılmasına səbəb olacaq.

❑ Söhbəti qələmə aldı:
Sevinc TELMANQIZI

### "Artıq Azərbaycandakı mövcud agentura şəbəkəsi deşifrə olunub"





### "İndiki mərhələdə siyasi qətllərin açılacağını gözləmək lazım deyil"

# Coğrafiyanın vəd etdiyi dividentlər...



Hüseynbala SƏLİMOV

**Bir vaxt geopolitika sözü Azərbaycan mətbuatında çox dəbdəydi. Jurnalistlər yeri gəldi-gəlmədi yazılarını bu rubrika altında verməyi xoşlayırdılar. Onlara elə gəlirdi ki, həmin söz yazılarına sanbal verir...**

Amma bu, hələ hamısı deyildi. O vaxt dəbdə olan bir ifadə də vardı: Azərbaycanın əlverişli geosiyasi vəziyyəti... Ölkənin üstünlüklərindən danışan zaman hamı bu ifadəni önə çəkməyi sevirdi...

İndi bizim keçmişi eşələmək fikrimiz yoxdur: olub keçənlər ən yaxşı halda tarix adamları üçün maraq kəsb edir. Ən başlıcası isə heç də hər şey tarix kimi də yadda qalmır, çox şey unudulur, yaddan çıxır...

Amma bizə elə gəlir ki, həmin sözləri yenidən bərpa etməyin vaxtıdır. Ona görə ki, neftin qiyməti ucuzlaşandan sonra Azərbaycanın əlverişli coğrafiyası yada düşdü. İndi biz tədricən coğrafiyanı iqtisadi dividendlərə çevirmək haqda düşünməyə başlamışıq. Halbuki hələ bir neçə il bundan əvvəl Z.Bjezinski yazırdı ki, Azərbaycan Mərkəzi Asiyanı Avropa ilə bağlayan çox əhəmiyyətli bir tıxacdır...

Bəli, neft və qaz siyasətçiləri də, elə cəmiyyəti də tənbəlləşdirir. Biz də bir xeyli neftdən gələn pullarla şəhərlərin və qəsəbələrin yollarını yamamaqla, daha doğrusu, onları asfaltlamaqla məşğul olduq. Budur, neftin qiyməti artıq qırx dollardan da aşağı düşüb. Belə vəziyyət isə düşünməyə sövq edir...

Yox, demirəm ki, bu cür cəhdlər yoxdur. Xeyr, vardır. Özü onlara elə bu yaxınlarda start verilib. İndi "Azərbaycanın tranzit imkanları" ən işlək ifadəyə çevrilib və o qədər işlək olub ki, həmin sahədə çalışan məmurlar jurnalsitlərin ən sevimli həmsöhbətlərinə çevriliblər...

Bir neçə ay bundan əvvəl yazıldı ki, Ermənistan öz dəmiryolunu İranla birləşdirməyə çalışır. O vaxt biz də israrla yazdıq ki, Ermənistanın əlindən bu şansı almaq lazımdır, çünki bunun üçün Azərbaycanın bütün imkanları var - maliyyə var, əlverişli coğrafi vəziyyət var və müəyyən infrastruktur var...

İndi işlər başlanıb. Hətta soraqlar gəlir ki, Çin də öz məhsullarının bir hissəsini Azərbaycan üzərindən ötürməyə start verib. Bizə nə qalır? İranla dəmiryolu xətlərini birləşdirmək və Bakı-Tiflis-Qars dəmiryolu xəttinin çəkilişini sürətləndirmək...

Güman ki, həmin işlər görüləcək. Təəssüf ki, müəyyən səbəblər üzündən Bakı-Tiflis-Qars xəttinin çəkilişi ləngiyir. Onu sürətləndirmək lazımdır. İrana gəldikdə isə onunla Qərb arasındakı qarşıdurma aradan qaldırılandan sonra Azərbaycan üçün geniş imkanlar açılıb. Ən azı İrandan Rusiyaya, Rusiyadan da İrana aparılan məhsulların həcmi artacaq və onlar Azərbaycan üzərindən daşınacaq. Elə bu səbəbdən rusların bir zərb-məsəli yada düşür: deyir ki, xoşbəxtlik olmazdı, əgər bədbəxtlik kömək etməsəydi... İndi neftin qiymətinin düşməsi də çox böyük bir bədbəxtlik, hətta neft ölkələri üçün faciə idi. Amma o, bizi alternativ imkanlar haqda düşünməyə vadar etdi...

Biz də düşündük. Və tapdıq... Hakimiyyət, bir az əvvəldə dediyimiz kimi, ilk dəfə olaraq ölkənin əlverişli coğrafiyasını yadına saldı. Təbii ki, indiki infrastruktur bunun üçün hələ elə də kifayət deyil... Onu təkmilləşdirmək və genişləndirmək lazımdır. Sözsüz ki, bunlar olacaq. Hər şey ondan asılıdlır ki, hökumət bunlara nə qədər ciddi yanaşacaq...

İran, Çin bir tərəfə, Mərkəzi Asiya ölkələri uzun müddətdir ki, Rusiyadan yan keçən alternativ tranzit imkanları haqqında düşünürlər. Onlara bu imkanları təklif etməyin vaxtıdır. Təbii ki, bunun üçün dəniz infrastrukturu yetərincə və hətta əsaslı olaraq qurulmalıdır - bizə böyük limanlar, iri tutumlu gəmilər və bərələr lazım gələcək. Əgər bunları etsək, Azərbaycanın coğrafi imkanlarını tez bir zamanda iqtisadi dividendlərə çevirə bilərik...

Bəli, Azərbaycan iqtisadiyyatını üç nəhəngin üzərində formalaşdırmağın vaxtıdır. Bunlar neft və qaz, turizm və tranzitdir. Bəzən, hətta tez-tez deyirlər ki, informasiya-kommunikasiya texnologiyalarını da inkişaf etdirməliyik. Olsun. Amma nəzərə almaq lazımdır ki, bu sahədə nəhəng rəqiblər var. Onları üstələmək elə də asan deyil...

Amma neft və qaz, turizm və tranzit tamam başqa məsələdir. Onlar Tanrının bizə bəxş etdiyi üstünlüklərdir. Nədən bu sahələri inkişaf etdirməyək?..

Qərəz, geopolitika olmasa da, siyasi coğrafiya tədricən şüurlara qayıdır. İndi onların nə qədər əlverişli olmasını zaman göstərəcək. Amma hər şeyi zamanın öhdəsinə buraxmaq da olmaz - özümüz də nəsə etməliyik...



# İtkin düşən neftçilərin taleyi...

## Onlar nə zaman ölmüş elan edilə bilər?

**"Günəşli" yatağının 10-cu platformasında baş verən dəhşətli faciədən 11 gün ötür. 32 neftçinin həlak olması və itkin düşməsi ilə nəticələnən hadisə ilə bağlı axtarışlar hələ də davam edir. İtkin düşənlərdən 6 nəfərinin cəsədi sulardan çıxarılsa da, 23 nəfər itkindir. "Günəşli" qəzası ilə təxminən eyni vaxtda Neft Daşlarında baş vermiş hadisədə itkin düşən 3 əməkdaşın da axtarışları heç bir nəticə verməyib.**

Artıq itkin düşənlərin sağ qalmasına ümidlər demək olar ki, tükənib. Ekspertlər də bildirir ki, açıq dənizdə 10 gün ərzində insanın sağ qalması mümkün deyil. Hətta onların cəsədlərinin tapılmasına da inam azalıb. Bəs itkin düşən şəxslərin ölmüş elan olunması qanunvericilik qaydasında necə həyata keçirilir?

**Hüquqşunas Müzəffər Baxış** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, itkin düşən insanın ölmüş elan edilməsi üçün qanunla 5 illik müddət nəzərdə tutulur. Hər hansı şəxsin itkin düşmüş hesab edilməsi üçün isə 2 illik müddət lazımdır. Lakin bu hər hansı bir təbii fəlakət nəticəsində və ya bəlli bir hal nəticəsində olubsa, 6 ay müddətində həmin şəxsin ölmüş elan edilməsi ilə bağlı məhkəməyə müraciət edilsə, məhkəmə hökm çıxaracaq ki, onu ölmüş hesab etsinlər. Əgər 6 ay ərzində o insanlar tapılmasa və məhkəməyə müraciət edilsə, məhkəmə həmin şəxslər haqqında hökm verə bilər. Onlara həm kompensasiya, həm də sığorta haqları veriləcək. Ola bilsin ki, ARDNŞ onlara müəyyən təminatlar ödəsin. Bu həmin şirkətdən asılıdır. Onlar qanunda nəzərdə tutulmuş bütün güzəştlərdən istifadə edə biləcəklər".

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının hüquqşünası Azər Quliyev "Yeni Müsavat"a danışarkən qeyd etdi ki, əslində bu insanlar artıq ölmüş elan edilməli idi:** "Qanunvericiliyə görə, itkin düşmüş şəxslərin ölmüş elan edilməsi məhkəmə qaydasında baş verməlidir. Ancaq bu olmasa belə yəqin ki, kompensasiya veriləcək. Çünki bu məsələ ölkə başçısının birbaşa diqqət mərkəzindədir. Mənim fikrimcə, hökumət itkin düşənlərə də eyni sığorta və kompensasiya ödəməlidir. Burada qanunu əsas gətirərək ayrı-seçkilik salmaq doğru olmaz. Çünki məhkəmə qərarı da formal xarakter daşıyır, o insanlar artıq həyatlarını itiriblər".

**Azər Quliyev qeyd etdi ki, qanun bu cür fövqəladə hadisələri deyil, ümumi halları nəzərdə tutur:** "Yəni insan var ki, evdən çıxıb və geri dönməyib. Onun sağ qalmaq imkanı daha çoxdur, tapıla bilər, geri dönə bilər. Dənizdə itkin düşən şəxs isə artıq çoxdan həyatını itirib və onların ölmüş elan edilməsi formal bir haldır. Çünki bu bütün ölkənin gözünün önündə olub. Bu səbəbdən mən hesab edirəm ki, məhkəmə qaydasında bu qəbul olunmadan da həmin şəxslərin kompensasiyaları ailələrinə ödənilməlidir. Həmin ailələrə həm Nazirlər Kabinetinin qərarına əsasən kompensasiya ödəniləcək, həm də sığorta ilə əlaqədar vəsait ödəniləcək. Hələ ki həmin ailələrin başı qarışıqdır. Bu məsələ ilə bağlı hər hansı narazılıq yoxdur. Ola bilər ki, gələcəkdə hansısa bir anlaşılmazlıq olsun. Ola bilər ki, onların ailə tərkibində birdəfəlik və aylıq maddi yardım alanlarla bağlı narazılıq olsun. Belə formal hallar ola bilər. Ancaq mən inanmıram ki, dövlətin nəzarətində olan bu prosesdə ciddi qanun pozuntuları baş versin".

Hazırda kompensasiyaların verilməsi ilə bağlı problemlərdən biri də odur ki, baş verən hadisədə ölən və itkin düşən şəxslərin ailələrinə birdəfəlik 15 min manat kompensasiya verilsə də , bu, Günəşli" fəlakəti ilə eyni gündə - dekabrın 4-də Neft Daşlarında qasırğa zamanı itkin düşən 3 neftçinin ailəsinə şamil edilməyib.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban Neft Daşlarında itkin düşən 3 neftçiyə birdəfəlik maddi yardım verilməməsinə etiraz edib:** "Bu sərəncam Neft Daşlarında öz vəzifə borcunu yerinə yetirərkən iş başında həlak olan 3 neftçiyə niyə aid edilməyib? Onlarin ailələrinin də 15 min manat birdəfəlik yardım alması üçün yanğın olmalı idimi?"

Sonuncu problemlə bağlı ARDNŞ-in mətbuat xidmətindən rəy öyrənməyə çalışsaq da, cəhdlərimiz nəticə vermədi.

❑ **Nərgiz LİFTİYEVA**

# ADR-dən Qubad İbadoğlu və Müsavat açıqlaması

## Ellada Məmmədli: "O məsələnin də həlli Qubad bəyə bağladır; biz partiyanın qeydiyyatının ləğvini..."

**Müsavat Partiyasının 2014-cü ilin sentyabrında keçirilən qurultayından sonra qurum daxilindəki narazıların Azərbaycan Demokratiya və Rifah Hərəkatı (ADR) adlı təşkilat yaratmasından təxminən bir il keçsə də fəaliyyətində hansısa sıçrayış, aktivlik nəzərə çarpmır. Bir çoxlarında belə rəy var ki, ADR-in sədri Qubad İbadoğlunun aylar öncə ABŞ-a getməsi və hələ də vətənə dönməməsi qurumun fəaliyyətini genişləndirməsinə, aktivləşməsinə mənfi təsir göstərir.**

Yayda Q.İbadoğlunun ölkəyə qayıdacağı deyilsə də, üstündən aylar keçməsinə baxmayaraq, hərəkat rəhbərinin gəlişi yubanır. Bu da qurumun fəaliyyətinə təsirini göstərir.

**ADR hərəkatının sədr müavini Ellada Məmmədli** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ADR işlərini özünün nizamnaməsi və fəaliyyət proqramı əsasında qurub. Qubad İbadoğlunun ölkədə olmaması isə qurumun işinə qətiyyən mane olmur: "Mütəmadi olaraq onunla sosial şəbəkədə görüşür, tapşırıq və rəylərini dinləyirik. Sədrin tapşırıqları ADR İdarə Heyəti tərəfindən müzakirə olunaraq icra olunur. Hazırda ADR Hərəkatı özünün təşkilatlanma dövrünü yaşayır. Bu işdə də ADR sədrinin çox çevik və mobil komandası fəaliyyət göstərir. Düzdür, ADR-in qeydiyyata alınması ilə bağlı bəzi texniki problemlər yaranıb. O məsələnin də həlli Qubad bəyə bağladır. Çox yaxın vaxtlarda qeydiyyat məsələsi də həllini tapacaq".




**"ADR-in üzvləri Müsavatla bağlı məhkəməyə müraciət edib. Bəziləri sizlərin partiyanın bağlanmasına və qeydiyyatının ləğvinə çalışdığınızı iddia edir. Belədirmi" sualına Ellada Məmmədli belə cavab verdi:** "Biz Müsavat Partiyasının VIII qurultayının nəticələrinin ləğvi ilə bağlı məhkəməyə müraciət etmişik. Əslində məqsədimiz partiyanın VIII qurultayının nəticələrinin-yəni başqan, şəhər - rayon sədrləri olmayan (sərbəst) Məclis üzvləri və MNTK üzvlərinin qeyri-legitim olduqlarını isbat edən faktlarla bağlı məhkəməyə müraciət etmişik. Bildiyiniz kimi, Müsavat Partiyasının VIII qurultayı bir gün keçirilmiş və orada yalnız başqan seçkisi elan olunmuşdur və bu prosedurun özünün də kifayət qədər nizamnamə qüsuru nəticəsində həll olunduğu, digər iki qurumun sərbəst Məclis üzvləri və MNTK üzvlərinin nəticələri qurultay səlahiyyətli olsa da qurultayda təsdiq olunmamışdır və yuxarıda qeyd etdiyim qurumlar sonrakı ikinci Məclisdə Arif Hacılı tərəfindən təsdiq edilmiş və həmin prosedurun özü də nizamnaməyə zidd olaraq həyata keçirilmişdi. Nəticədə yeni başqanın rəhbərliyi ilə təşkil olunmuş qurumlar saxtalıqlarla yanaşı, partiyanın bütün fədakar fəal üzvlərini nizamnaməyə zidd olaraq partiyadan xaric etmiş və ya yersiz nizamnamə cəzası verib. Bizlər o vaxt partiyada müsavatçıların hüquqlarının müdafiə komissiyasını yaratdıq. Həmin komissiyanın üzvləri Arif Hacılının göstərişi ilə partiyadan əsassız olaraq xaric edildilər. Arif Hacılının 1 illik rəhbərliyi dövründə yüzlərlə nizamnamə pozuntusuna yol verilmiş, partiyanın adına ləkə gətirilmişdir. Biz, müsavatçıların hüquqlarını qoruyan komissiya üzvləri Müsavat Partiyasını qorumaq naminə, nizamnaməyə istinad edərək VIII qurultayın yenidən keçirilməsi məqsədilə məhkəməyə müraciət etmişik. Partiyada qurultayın yenidən keçirilməsi minlərlə fədakar müsavatçının fikridir.

Biz partiyanın qeydiyyatının ləğvinə yox, VIII qurultay adından Ədliyyə Nazirliyinə təqdim olunmuş saxta protokolun ləğvinə iddialıyıq".

**E.Məmmədli onu da dedi ki, bu istəklərini reallaşdırmaq üçün kifayət qədər faktlara və faktları ortaya çıxaran dəlillərə, video və foto materiallara malikdirlər:** "Bunları da məhkəməyə təqdim etmişik. Məhkəməyə ADR üzvləri olaraq yox, müsavatçıların hüquqlarının müdafiəsi komissiyasının üzvləri olaraq müraciət etmişik. Çünki aramızda Müsavatın üzvü olanlar da var".

❑ **Etibar SEYİDAĞA**

# Ləkəli partiyanın çamur atmaq siyasəti...

## Nardaran hadisələri və Fuad Qəhrəmanlı həbsindən istifadə edən AXCP növbəti çirkin kampaniyasına start verib; Əli Kərimlinin müavini həbsdə qaldı

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlının 9 dekabrda həbs edilməsindən sonra partiya daxilində növbəti çirkin kampaniyaya start verilib. Həbslə bağlı obyektiv yazılar yazan şəxslərin, mətbuat orqanlarının üzərinə qaragüruhçu şəkildə hücumlar başlayıb. Əsas hədəf də həmişə olduğu kimi "Yeni Müsavat" seçilib...**

Nardaran hadisələri başlandığı gündən ikibaşlı siyasət yeridən Milli Şura və AXCP cəmiyyətin suallarına cavab verməkəvəzinə, hər cür vasitə ilə hədəfdən yayınır. Əvvəlcə Nardaran hadisələri ilə bağlı həbs edilən Müsəlman Birliyi Hərəkatının sədri Tale Bağırzadənin Milli Şuranın üzvü olduğunu hər cür vasitə ilə unutdurmağa çalışan bu "demokratlar", indi də F.Qəhrəmanlının həbsindən doğan suallardan qaçırlar. Mətbuatın vəzifəsini anlamayan bu "zavallılar dəstəsi" hər bir media quruluşunun Əli Kərimlinin diktəsi ilə işləyən "Azadlıq" qəzeti tipində olmasını istəyirlər. "Əgər belə deyilsənsə, bizdən deyilsən" prinsipinə əsaslanırlar.

Təsadüfi deyil ki, Nardaran hadisələrindən 20, F.Qəhrəmanlının həbsindən isə bir həftəyə yaxın vaxt ötür. Bu müddət ərzində Əli Kərimli başda olmaqla, bu "demokratiya aşiqləri" şəxslərinə ünvanlanan sualların heç birinə cavab tapa bilməyiblər. Sussalar dərd yarı olar, başlayıblar ləyaqətli, haqqı deyən, yazan şəxsləri ləkələməyə. Bununla elə zənn edirlər ki, üzərlərinə yapışan ləkəni yuyacaqlar. Düşünmürlər ki, bu ləkələr yalnız insanın əməli ilə bağlıdır. Şəxsiyyətin zədələnməsi sınmış bir fincanı xatırladır. Bəzən belə insanlara cavab verməklüzumsuz görünür. Arada unutduqları kimliklərini, qara



Fuad Qəhrəmanlı

keçmişlərini xatırlatmaq lazımdır...

F.Qəhrəmanlının adı çəkilmişkən, mətbuatın vəzifə borclarından olan xəbəri diqqətə çatdırmaq istəyirik. Dekabrın 14-də Bakı Apelyasiya Məhkəməsində F.Qəhrəmanlının barəsində çıxarılan həbs-qətimkan qərarından verilən şikayətə baxılıb. Hakim Əflatun Qasımov həbs-qətimkan qərarını qüvvədə saxlayıb.

Qeyd edək ki, F.Qəhrəmanlı Cinayət Məcəlləsinin 281 (dövlət əleyhinə açıq çağırışlar) və 283-cü ( milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri üzrə ittiham olunur.

Yazının ortasında AXCP sədrinin müavini barəsində xəbərə yer ayırmaqla Kərimlinin şəxsi bizneslərindən sayılan "Azadlıq" qəzetinə bəzi nüansları xatırlatmaq istədik. Mətbuatın vəzifələrindən biri şəxsin kimliyindən asılı olmayaraq, hər kəsə bərabərhüquqlu yer ayırmaqdır. "Kim bizi tənqid edirsə, düşmənimizdir" prinsipinə əsaslanaraq, barələrində tənqidi fikirlər səsləndirən şəxslərə qarşı çirkin kampaniyaya start vermək, şəxsi mülklərinə çevirdikləri media orqanında embarqo qoymaq heç bir əxlaqa sığmır.

Bütün bunları qısa da olsa xatırlatmaqla, həmin şəxsləri bir daha uyardıq...

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

**Bir neçə gün əvvəl “Global Financial Integrity” (GFI) “İnkişaf etməkdə olan ölkələrdən qanunsuz kapital çıxarılması” araşdırmasının nəticələri açıqlanıb. Araşdırmaya görə, adambaşına düşən oğurlanmış kapitalın həcminə görə Azərbaycan liderlərdən öndədir. Adambaşına 1010 dollar düşür.**

# Azərbaycandan çıxarılan 9,5 milyard dollar...

## Ekspertlər bildirirlər ki, bunu hökumət strukturlarının nəzarətindən kənar etmək mümkün deyil: “Bu vəsaitin dövriyyəsinə həm Mərkəzi Bank, həm xüsusi xidmət orqanları mütləq nəzarət edirlər”

Azərbaycan 149 ölkə arasında qeyri-leqal kapital çıxarılması üzrə 17-ci yeri tutub. Araşdırmaya əsasən, ölkədən ildə 9,5 milyard dollar çıxarılıb. Bu, 2014-cü ilin dövlət büdcəsinin yarısına bərabərdir. Reytinqi tərtib edənlər 2004-cü ildən 2013-cü ilə qədər olan məlumatları təhlil ediblər.

Reytinqdə ilk yerləri ildə 140 milyard dollar və 105 milyard dollarla müvafiq olaraq Çin və Rusiya tutur. Lakin adambaşına düşən oğurlanmış kapitalın həcminə görə Azərbaycan liderlərdən öndədir- 1010 dollar. Rusiyada adambaşına 729 dollar, Çində isə 107 dollar oğurlanmış kapital düşür.

Postsovet ölkələrindən Qazaxıstan 16,704 milyard dollarla, Ukrayna 11,676 milyard dollarla Azərbaycandan öndədir, onların ardınca 8,820 milyard dollarla “qüsursuzluq” etalonu Belarus gəlir, Ermənistan on dəfə geri qalır- 983 milyon dollar. Neft-qaz ölkəsi olan Türkmənistandan qanunsuz olaraq cəmi 36 milyon dollar çıxarılır.

“Global Financial Integrity” inkişaf etməkdə olan ölkələrdən qanunsuz maliyyə axınlarını təhlil edən və onları azaltmaq məqsədi daşıyan milli və beynəlxalq tədbirlərin görülməsinin tərəfdarı olan Amerikanın araşdırma təşkilatıdır.

GFİ-nin hesablama metodikası yalnız ölkədən qanunsuz çıxarılan vəsaiti, sənədlərdə əksini tapmayan əməliyyatları nəzərə alır. GFİ ən mühüm kanal kimi gömrük bəyannaməsi zamanı faktiki ixrac və idxal dəyərinin azaldılmasını və ya artırılmasını göstərir - qeyri-leqal kapital axınının 83,4 faizi onun payına düşür. Bu barədə xəbəri RBK kanalı yayıb.

Məlum olub ki, Azərbaycandan hər il qeyri-leqal yolla 9,5 milyard dollar çıxarılır! Bu, yalnız GFİ-nin məlumatıdır. Bu, özünəməxsus antireytinq siyahısına ənənəvi olaraq Çin və Rusiya başçılıq edirlər. Çindən 139,228 milyard, Rusiyadan isə 104,977 milyard dollar qeyri-qanuni yolla çıxarılıb.



**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, GFİ-nin məlumatlarını etibarlı hesab etmək olar:** “Bu, çox güman ki, hər hansı əsaslara dayanır. Çünki Azərbaycandan çıxan vəsait bir tək Azərbaycanda yox, hansı ölkəyə daxil olursa, orada da qeydiyyata düşür və mənbəyi bilinir. Ona görə də çox güman ki, belə məlumatlara güvənmək olar. Çıxarılan pulun həcmindən asılı olmayaraq, məlumata güvənmək olar. Ola bilər, bəzi rəqəmlərdə cüzi dəyişiklik olsun. Amma bu tip araşdırmalar etibar etməli mənbələrdir”.

**Ekspertin sözlərinə görə, korrupsiya axınını normal biznesdən ayırmaq lazımdır:** “Rüşvətlə, korrupsiya ilə axını normal biznesdən ayırmaq lazımdır. Bizim əlimizdə faktlar yoxdur. Ancaq ehtimallar üzərindən danışa bilərik. Ehtimallardan biri odur ki, İranın sistemdən ayrıldığı dövrdən sonra dünya bank sistemindən inteqrasiyası olmadığına görə bir çox əməliyyatlar, bank əməliyyatları Azərbaycan və Türkiyə üzərindən yürüdülürdü. Yəni bunun bir qismi ehtimal etmək mümkündür ki, İranın vəsaiti ola bilər. Azərbaycan üzərindən xarici banklara müəyyən əməliyyatların maliyyələşdirilməsi üçün, iqtisadi əməliyyatların maliyyələşdirilməsi üçün həyata keçirilən pullar ola bilər. İkinci ehtimal kriminal offşor zonalar vasitəsilə biznes strukturlarının etdiyi əməliyyatlardır. Offşor zonalar üzərindən əməliyyatlar həyata keçirərkən, leqal şəkildə vergiləri azaltmaq mümkündür. Bir çox biznes strukturları bu yoldan istifadə edirlər. Azərbaycanda da illərdir bundan istifadə olunur. Ən geniş ehtimal təbii ki, korrupsiya mexanizmləri ilə ölkədə qazanılan vəsaitin ölkədən xaricə çıxarılması yoludur. Burada çox maraqlı məqam ondan ibarətdir ki, bunu dövlət və hökumət strukturlarının nəzarətindən kənar etmək demək olar mümkün deyil. Bura, bu vəsaitin dövriyyəsinə həm Mərkəzi Bank, həm xüsusi xidmət orqanları mütləq nəzarət edirlər”.

❑ RÖYA

# Kartla satış arağın və siqaretin qiymətini artıra bilər



## İqtisadçı ekspert: “Yeni qayda bir çox pərakəndə ticarət şəbəkələrinin ticarətinə maneələr yaradacaq”

**İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə təklif edilən dəyişikliklərə görə, aksiz markası olan məhsulların nağd qaydada alqı-satqısına görə cərimə tətbiq olunur. Həmin maddəyə 229.2 hissəsi əlavə edilib. Həmin hissəyə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların nağd yolla az miqdarda satılması, belə məhsulların satış məqsədləri üçün nağd qaydada az miqdarda alınmasına görə 100 manat cərimə nəzərdə tutulub.**

Burada az miqdarda dedikdə 50 manatlıq məbləğ nəzərdə tutulur. Paralel olaraq Cinayət Məcəlləsinə edilən dəyişikliyə görə, nağd yolla alınıb-satılan aksiz markalı mallar xeyli miqdardadırsa, yəni onların məbləği 50-500 manat arasındadırsa, min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Əgər belə hal daha böyük məbləğdə baş verərsə, yəni 500 manatdan artıq məbləğdə alkoqollu içki və ya siqaret alınıb-satılsa, iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzası nəzərdə tutulur. Bir sözlə, siqaret və spirtli içkilər satılan bütün mağazalarda postterminallar olmalıdır ki, siqaret və içki alanlar postterminal vasitəsilə ödəniş edə bilsinlər. Postterminal olmayan obyektlərdə alkoqollu içki və tütün məmulatlarının satışı ümumiyyətlə mümkün olmayacaq. İnzibati Xətalar və Cinayət məcəllələrinə edilən dəyişikliklər araq və digər spirtli içkilərlə yanaşı, pivə satışına da aiddir. Yəni ənənəvi olan “pivə məclisinə” oturan şəxslər də ödəməni plastik kart vasitəsilə həyata keçirməli olacaq.

Spirtli içkilərin və siqaretin kartla satışı bir çox ölkələrdə çoxdan həyata keçirilir. Həmçinin digər ölkələrdə siqaret və spirtli içkilərin satışı müxtəlif qaydalarla həyata keçirilir. Xarici ölkələrdə siqaretlər mağazalarda üstüörtülü yerlərdə, qutularda saxlanılır. Məsələn, Rusiyada siqaret stendlərinin üstü örtülü olur. 18 yaşından aşağı şəxslərə satışının qadağası görünsün deyə. Həmçinin Rusiyada siqaret müəyyən edilmiş saatlarda satılır. İngiltərədə isə küçədə içki içmək qadağandır. Həmçinin dövlət kanallarının heç birində içki, siqaret reklamı yayımlanmır. Almaniyada isə küçədə içki içənlərə pul cəzası tətbiq olunarkən, bəzi bölgələrdə gecə saatlarında içki satışı ümumiyyətlə qadağandır. Finlandiyada isə 18:00-9:00 arası spirtli içki satışı həyata keçirilmir. Ancaq cümə günləri 20:00-a qədər satıla bilər. İsveçdə 19.00-10.00 arası satış edilmir. Nyu-Yorkda yalnız pivə 24 saat satılır. Yüksək spirtli içkilər isə bazar ertəsindən şənbə gününə qədər, sadəcə olaraq, saat 09.00-24.00 arası satılır.

Azərbaycanda isə bununla bağlı hər hansısa bir qadağa yox idi. Hazırda ölkə bazarında müxtəlif qiymətlərə siqaretlər satılır. Mətbuatda verilən statistikaya görə, siqaret çəkmək bir nəfərə orta hesabla ayda 60-150 manata başa gəlir. Maraqlıdır, siqaret və spirtli içkilərin kartla satışının tətbiqi ticarət dövriyyəsinə öz təsirini göstərəcəkmi?

**İqtisadçı ekspert Rəşad Həsənov bu qaydanın bahalaşmaya səbəb olacağını bildirdi:** “Bu qayda ilə əlaqədar əvvəllər regionlarda bir sıra problemlər ortaya çıxacaq. Çünki bir çox adamların kartları yoxdur. Hətta bir çox yerlərdə postterminallar belə yoxdu. Amma cəmiyyət sonrakı dövrlərdə, böyük ehtimalla, 2-3 ay ərzində buna adaptasiya olacaq. Burada qeyd ediləsi xüsusi məqam ondan ibarətdir ki, qiymətlər böyük ehtimalla bahalaşacaq. Çünki artıq paylayıcı şirkətlər tərəfindən pərakəndə ticarət şəbəkələrinə bununla bağlı xəbərdarlıq olunub. Bildiyimiz kimi, nağd şəkildə dövriyyənin həyata keçirilməsi həm iri şirkətlər tərəfindən, eyni zamanda pərakəndə ticarət şəbəkələri tərəfindən ödənilən vergilərin həcminin artmasına gətirib çıxaracaq. Yəni əvvəlki dövrlərdə bu hissədə müəyyən manevr etmək barədə xərcləri azaldırdılar. Lakin hazırda 2016-cı ildən tətbiq olunan qaydalar bu manevr imkanını məhdudlaşdırır. Eyni zamanda vergi dərəcələrinin artırılması da 2016-cı ilin yanvarından qüvvəyə minir ki, bu, ələvə xərclərə yol açacaq və bəhs etdiyimiz məhsulların qiymətlərinin bahalaşmasına səbəb olacaq. Qiymətlərin bahalaşması isə hazırkı situasiyada istehlakçılar üçün heç də arzu olunan deyil. Nəticədə isə tütün məmulatlarında və spirtli içkilərdə daha aşağı qiymətli və keyfiyyətsiz, orqanizm üçün zərərli olan məhsulların satışının artmasına səbəb olacaq. Amma düşünmürəm ki, bu, ümumi dövriyyənin azalmasına gətirib çıxarsın”.

**İqtisadçı ekspert yeni qaydanın bir çox pərakəndə ticarət şəbəkələrinin ticarətinə maneələr yaradacağını bildirdi:** “Yeni qaydalar bir çox pərakəndə ticarət şəbəkələrinin tütün məmulatlarının və spirtli içkilərin satışını həyata keçirməsində maneələr yaradacaq. Bunun nəticəsində də daha çox maliyyə imkanları daha üstün olan ticarət şəbəkələri bu istiqamətdə fəaliyyətlərini daha da gücləndirəcəklər. Bu pərakəndə ticarət şəbəkəsində daha çox kiçik ticarətlə məşğul olanların bu sahədə fəaliyyətlərini məhdudlaşdıracaq və son nəticədə də gəlirlərin azalmasına gətirib çıxaracaq. Digərlərinin isə bu sahədə rəqabət mühiti qeyri-müəyyən olduğu üçün bir sıra qrupların gəlirlərinin artımına gətirib çıxaracaq”.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

# İŞİD və "ən-Nusra": iki pisdən hansı yaxşıdır?

## Yeni əsrin ən böyük bəlaları haqda nə bilirik, Türkiyə "ən-Nusra"nı terror təşkilatları siyahısından niyə çıxarıb...

**Politoloq Ərəstun Oruclu "Yeni Müsavat" qəzetinə müsahibədə Suriyada savaşa qatılan azərbaycanlılarla bağlı maraqlı bir fakta toxunub. Ekspert qeyd edib ki, onların araşdırmalarına görə, orada savaşan azərbaycanlıların böyük çoxluğu İŞİD sıralarındadır. Kiçik bir hissə isə digər qruplarda, o cümlədən "ən-Nusra"da cəmləşib.**

**Sitat:** "Vaxtilə biz alman jurnalistlərinin köməyi ilə bir araşdırma apardıq və ortaya fakt qoyduq ki, yüzlərlə azərbaycanlı İŞİD sıralarında döyüşür. Amma çox maraqlı hadisə baş verdi bundan sonra. Azərbaycan telekanallarından birinin əməkdaşı Türkiyədən keçdi Suriyaya, orda çəkilişlər apardı. Gəldi, silsilə verilişlər verdi. Təbliğat yanlış istiqamətdə aparılmağa başlandı ki, guya azərbaycanlılar İŞİD deyil, "ən Nusra" cəbhəsində, fərqli silahlı birləşmədə döyüşürlər. Bu, yalan idi. Ona görə də sual olunur ki, niyə bu izi azdırırdılar? Bu, kimə lazım idi? Məsələ burasındadır ki, biz həmin araşdırmada göstərmişdik ki, Azərbaycandan gedib Suriyada döyüşənlərə Azərbaycanın dövlət orqanları səviyyəsində himayə var".

Politoloqun bu məlumatı, eyni zamanda son zamanlar Suriyada və İraqda əcnəbi döyüşçülər mövzusunun yenidən aktuallaşdığını nəzərə alaraq, bu iki qruplaşma barəsində, onların sıralarındakı azərbaycanlıların sayı və nisbəti haqda bəzi məqamları qeyd etməyə çalışdıq.

Əvvəlcə ondan başlayaq ki, hər iki qruplaşma Suriyada fəaliyyət göstərən ən güclü radikal islamçı hərbi birlikdir. Daha öncə hər ikisi formal olaraq "əl-Qaidə"nin yerli qolu olduğunu iddia etsə də, sonradan Əyman əz-Zəvahiri açıqlama yayaraq "ən-Nusra" qruplaşmasının onları təmsil etdiyini bildirib, İŞİD-çiləri isə bu qruplaşmaya tabe olmağa səsləyib. Və təbii ki, rədd cavabı alıb.

Yeri gəlmişkən, ötən il "ən-Nusra" silahlı qruplaşması İŞİD-i "xəvaric" *(yəni dindən xaric olmuş)* elan edib. Qruplaşmanın sözçüsünün yaydığı açıqlamada deyilirdi ki, "ən-Nusra" İŞİD-i əhlü-sünnə məzhəbindən deyil, "xarici" *(dindən çıxmış)* hesab edir. Açıqlamada bir sıra əhli-sünnə alimləri, o cümlədən "əl-Qaidə"nin hazırkı rəhbəri Əyman əl-Zəvahirinin İŞİD-i yolunu azmış qruplaşma elan etdiyi qeyd olunur. Həmçinin açıqlamada bildirilir ki, İŞİD üçün digər müxalif qruplar mürtəd hökmündə olduğu üçün bu qruplarla müharibəyə Əsəd qüvvələri ilə döyüşmək qədər önəm verir.

Hazırda hər iki qruplaşma dünyanın əksər dövlətləri tərəfindən terror təşkilatı kimi tanınıb. Eyni zamanda bu iki qruplaşma Suriyada (İŞİD eyni zamanda İraqda) ən güclü hərbi birləşməyə sahibdir. Suriyada daxili müharibə başlayan dönəmdə meydana çıxan bu qruplaşmalar hazırda ölkə ərazisinin böyük bir hissəsinə nəzarət edir. İŞİD isə demək olar ki, Suriyanın yarıdan çoxuna nəzarət edir.

İlk vaxtlarda aralarında ciddi münaqişə olmasa da 2014-cü il yanvarın 3-dən başlayaraq Suriyanın şimalındakı bölgələrə nəzarət etmək uğrunda "ən-Nusra" və İŞİD arasında savaş başlayıb. Qanlı savaş hər iki tərəfdən böyük itkilərə səbəb olub. Hazırda da şimal ərazilərdə ara-sıra iki qruplaşma arasında toqquşmalar qeydə alınır.



Yeri gəlmişkən, ötən həftə Səudiyyə Ərəbistanından toplanan Suriyanın hərbi və siyasi müxalifətinin ümumi toplantısına nə İŞİD (təbii səbəblərdən), nə də "ən-Nusra" qruplaşması qatılmayıb və "ən-Nusra" lideri Məhəmməd Culani toplantını tənqid edib, "xəyanət" adlandırıb.

Yeri gəlmişkən, azərbaycanlıların Suriyada konkret hansı qruplaşmada nə qədər sayla təmsil olunduğu dəqiq məlum deyil. Ehtimallara görə, xüsusən də ilk vaxtlarda müxtəlif islamçı qruplarda azərbaycanlılar olub. Amma hazırda daha çox azərbaycanlının İŞİD sıralarında olduğu güman olunur. Çünki geri qayıdanlar, eləcə də açıqlanan məlumatlar, videogörüntülər bunu deməyə əsasən verir. İki il əvvəl azərbaycanlılardan biri də Türkiyə mediasına Suriyadakı azərbaycanlıların 60 faizdən çoxunun İŞİD sıralarında olduğunu bildirmişdi. Son illərdə İŞİD-in xeyli gücləndiyini və əsas təbliğat və maliyyə imkanlarına sahib olduğunu nəzərə alsaq, azərbaycanlıların (eləcə də bütövlükdə əcnəbilərin) bu qruplaşmaya qoşulmasının sirri aydın olar.

***

"Ən-Nusra Cəbhəsi" ("Cəbhət ən-Nusra") 2011-ci ilin sentyabr ayında Suriyada yaradılıb, ilk dəfə 2012-ci il yanvarın 23-də adı elan olunub. Qruplaşmanın tam adı "Cabhat an-Nusra li-əhli-Şam" - "Şam Əhli üçün Yardım Cəbhəsi"dir. Hazırda "əl-Qaidə"nin Suriya qolu hesab olunur. Qruplaşma lideri Əbu Muhəmməd əl-Culani 2013-cü ilin aprel ayında verdiyi bəyanatda məqsəd və vəzifələrinin digər islamçı qruplaşmalara dəstək olmasına baxmayaraq, "ən-Nusra"nın müstəqil bir təşkilat olduğunu bildirib. Həmin ilin noyabrında isə "əl-Qaidə" lideri Ayman Zəvahiri "ən-Nusra Cəbhəsi"ni rəhbərlik etdiyi təşkilatın Suriyadakı yeganə qanuni təmsilçisi elan edib. "Ən-Nusra Cəbhəsi" bütün dünyada terror təşkilatı kimi tanınır. ABŞ və bir sıra dövlətlər tərəfindən terror təşkilatı siyahısına salınsa da, bu il iyunun 18-də Türkiyə hökuməti Suriyada fəaliyyət göstərən "ən-Nusra Cəbhəsi"nin adını terror təşkilatları siyahısından çıxarıb. Buna səbəb qruplaşmanın Suriyada Bəşər Əsəd qüvvələrinə qarşı savaşmasıdır.

"Ən-Nusra" Suriyada hazırda 3 ən güclü müxalif qruplaşmadan biridir. Qruplaşmanın, bəzi məlumatlara görə, 6-10 min arası döyüşçüsü var. Amma daha çox sayda tərəfdarının olduğu güman edilir. Suriyada savaşan ən qəddar qruplaşmalardan biri kimi tanınıb. Dəməşqdə bir sıra terror hücumlarının, eyni zamanda ələ keçirilən hökumət tərəfdarlarının edam səhnələri ilə tanınıb. Qruplaşmanın lideri Əbu Məhəmməd Əl Colaninin əsl adı Usamə əl-Haddavidir, Suriyanın Deyr əz-Zor bölgəsindəki əş-Şəhil şəhərində doğulub. Bəzi məlumatlara görə, 2003-cü ildə Amerika İraqı işğal etdiyi zaman Dəməşq Universitetinin tibb fakültəsində təhsil alan Colani təhsilini buraxaraq İraqa gedib. Burda "əl-Qaidə"nin İraq qoluna qoşulub. 2010-da həbs olunub və bir il sonra həbsdən buraxılıb. Bu günə qədər yalnız bir dəfə "əl-Cəzirə" kanalına müsahibə verib, ancaq üzü görünməyib. Yalnız bir şəkli var, sosial şəbəkələrdə geniş yayılmış qara paltarlı, əli avtomatlı şəxsin Colani olduğu iddia olunsa da, onunla bağlı şübhələr də var.

Daha əvvəl "ən-Nusra" və İŞİD qruplaşması vahid bir təşkilat olub. Hətta mənbələrdə Colaninin İraqdan məhz İŞİD lideri Əbubəkr Bağdadi tərəfindən Suriyaya göndərildiyi haqda məlumatlar yer alıb. Bildirilir ki, "ən-Nusra" cəbhəsi Suriyada məhz İŞİD və "əl-Qaidə" adına savaşıb. Ancaq sonradan İŞİD qruplaşması da öz fəaliyyətini Suriyaya keçirib və Əbubəkr Bağdadi 2013-cü ildə iki qruplaşmasının birləşdiyi və "İraq-Şam İslam Dövləti"nin yaradıldığını elan etdikdən sonra iki lider arasında münasibətlər soyuyub. Colani İŞİD-ə qatılmaqdan imtina edib.



Daha sonra bu qruplaşma arasında kiçik toqquşmalar, zəbt olunmuş ərazilərə nəzarət uğrunda qarşıdurmalar qeydə alınıb. İŞİD bir neçə "ən-Nusra" komandirini qaçıraraq qətlə yetirib. 2014-cü il yanvarın 3-də isə iki qruplaşma arasında qanlı müharibə başlayıb. Bu toqquşmalarda Suriyada fəaliyyət göstərən digər islamçı qruplaşmalar "ən-Nusra" qruplaşmasını dəstəkləyib. Ancaq buna baxmayaraq, İŞİD-ə üstün gəlmək mümkün olmayıb. Son məlumata görə, ötən dövrdə Suriyada islamçı qruplaşmalar arasında davam edən döyüşlərdə 5 min nəfərdən çox adam ölüb.

Hazırda 80-100 min arası tərəfdarı olan, İraq və Suriya ərazilərinin böyük bir qisminə faktiki olaraq nəzarət edən, bütün bunların yanında neft ixrac edən və dünyanın ən varlı terror qruplaşması ünvanına sahib olan İŞİD (İraq və Şam İslam Dövləti) İraq amerikalılar tərəfindən işğal edildikdən sonra yaradılıb. Təşkilatın ilk adı 2004-cü ildə "Tövhid və Cihad", lideri isə "əl-Qaidə"nin İraq qanadının lideri Əbu Musab əl-Zərqavi olub. Bir müddət həm də İraq "əl-Qaidə"si olaraq tanınıb, ABŞ ordusu ilə savaşıb.

2006-cı ildə Zərqavi amerikalılar tərəfindən öldürüldükdən sonra təşkilatın başına Əbu Həmzə əl-Mühacir keçib. Daha sonra isə Əbu Ömər əl-Bağdadi qruplaşmanın lideri olub. Eyni zamanda "əl-Qaidə"nin İraq qolu adını "İraq İslam Dövləti" olaraq dəyişdirib.

2010-cu ilin aprelində ABŞ və İraq ordusu Sisar bölgəsində Əbu Ömər əl-Bağdadi və Əbu Həmzə əl-Mühacirin qaldıqları evə əməliyyat təşkil edərək hər ikisini ölü olaraq ələ keçirir. Bundan sonra qruplaşmaya Əbu Bəkir əl-Bağdadi rəhbərlik etməyə başlayır. Həmin vaxt Bağdadi bir müddət amerikalıların Küveyt ərazisindəki həbsxanasında saxlanılıb. Ancaq sonradan azadlığa buraxılıb.

Qruplaşma növbəti dəfə 2011-ci ildə Suriyada daxili müharibə başladıqdan sonra fəallaşır. İlk vaxtlar silahlı hücumlar həyata keçirən qruplaşma 2012-ci ildə İŞİD olaraq tanınmağa başlayır və ilk dəfə qəddar edam səhnələri, kütləvi qətllərlə gündəmə gəlir. 2014-cü ildə Suriyanın İraqla sərhəd şərq ərazilərini ələ keçirən İŞİD eyni zamanda İraqda da yenidən fəallaşır. 2014-cü ilin əvvəlində İŞİD eyni zamanda Suriyadakı qruplaşmalar savaşmağa başlayır, əsas hədəfinin yeni şəriət dövləti qurmaq olduğunu elan edir.

2014-cü ildə İŞİD silahlıları İraqın ikinci böyük şəhəri Mosulu ələ keçirir və bununla da İŞİD yalnız İraq və Suriya deyil, region və dünya üçün təhdid olduğunu nümayiş etdirir. İŞİD-ə qarşı beynəlxalq koalisiya yaradılır, hava zərbələri endirilir. Ancaq bütün bunlar qruplaşmanın İraq və Suriyada irəliləməsinin qarşısını almır. İŞİD regionda ən böyük və güclü təşkilata çevrilir. İŞİD-in ilk ciddi məğlubiyyəti Suriyanın Türkiyə ilə sərhəddə yerləşən Kobani şəhərində oldu. Qərb koalisiyasının dəstəyi ilə kürd savaşçıları İŞİD-in 5 ay aramsız hücuma keçdiyi Kobanini ələ keçirməsinə imkan vermədi. Nəticədə uğursuzluğa düçar olan İŞİD geri çəkildi və bununla da İŞİD-in məğlubedilməzlik yürüşü dayandı. Bundan sonra təşkilatın liderinin ölüm xəbəri və yeni lider müəyyən olunması da qruplaşmanın imicini zədələdi. Ancaq buna baxmayaraq, qruplaşma hələ də regionda, eləcə də dünyanın müxtəlif bölgələrində öz varlığını göstərir.

Daha sonra öz pul vahidini, neft ixracatını və digər dövlət üçün gərəkli olan fəaliyyətləri başladan İŞİD faktiki olaraq yeni dövlət olmaq iddiasını ortaya qoyur. Qruplaşmanın gündəlik yüz minlərlə barel neft satdığı, illik büdcəsinin isə yalnız neftdən 1 milyard dollardan çox gəlir götürdüyü, nəzarət etdiyi ərazilərdə isə 12 milyon insan və yüz milyardlarla ölçülən əmlak olduğu böyük bir qruplaşmaya çevrilir.

Son məlumatlarda İŞİD-in tərkibində azərbaycanlılar da daxil olmaqla, dünyanın 80 ölkəsindən 30 mindən çox əcnəbinin döyüşdüyü qeyd olunur. Avropalılar, amerikalılar, uzaq Avstraliyadan, Çindən (uyğurlar) olmaqla, müxtəlif ölkələrdən gəlmiş formal olaraq islamçı adlandırılan insanlar İŞİD ətrafında birləşib.

Ancaq hər nə qədər bu cür təqdim edilməyinə baxmayaraq İŞİD fanatik islamçıların qrupu deyil. 2003-cü ildə İraqın işğalı ilə buraxılan və generalları da daxil olmaqla, böyük bir çoxluğu "yer altına" çəkilən İraq (Səddam) ordusu bu gün İŞİD-in içərisində öz varlığını göstərir. Mosulun və digər iri şəhərlərin alınması məhz təcrübəli ordu komandirlərinin strategiyası idi. Hazırda İŞİD İraq və Suriya ilə yanaşı, Əfqanıstanda, Misirdə, Liviyada, Yəməndə və Afrikanın bəzi cənub ölkələrində rəsmi olaraq öz varlığını davam etdirir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Yeni ili bu şəhərlərdə keçirmək məsləhətdir

## Bir-birindən fərqli 2016 planları artıq hazırdır

**Zaman sürətlə irəliləyir və Yeni ili fərqli bir məkanda, unudulmaz keçirmək istəyənlər artıq turpaketlərlə maraqlanmağa başlayıblar. Bir az imkanı olanlar üçün hazırda ən böyük sual bayramı harada keçirməkdir. Qısacıq bir müddətə sığışdırası olsaq da, yorğun iş tempindən qurtulub yeni ilə hər kəsdən fərqli bir şəkildə girmək çox özəl bir fürsətdir. Amma bunun üçün bir qədər cəld olmaq lazımdır. Çünki hər keçən dəqiqə qiymətlərin daha çox artması, rezervasiya fürsətlərinin azalması deməkdir.**



Dünyanın tanınmış turizm şirkətləri Yeni ili xaricdə keçirmək istəyənlərə ən favorit şəhərlərin siyahısını hazırlayıb. Bu siyahının ilk beşliyinə daxil olan şəhərlərə və orda adəti üzrə keçirilən yeni il tədbirlərinə diqqət edək.

**Moskva**

Qızıl Meydan yeni ilin keçirildiyi ən coşğulu və ideal məkanı sayılır. Xüsusən də vizasız gedə biləcəyimiz ölkə olduğu üçün ilk tərcihlər sırasındadır. Rusiya demək soyuq, cənub və böyük ehtimalla qar deməkdir. Yeni ili qarsız keçirmək istəməyənlər yüz faiz Moskvanı tərcih etməlidir.

**Barselona (İspaniya)**

Yeni il gecəsini limitsiz əyləncə və ilin ilk günündə buz kimi Aralıq dənizinin soyuq sularında keçirmək istəyənlər isə Barselonanı seçə bilərlər. Bir Avropa şəhəri olmasına baxmayaraq, Aralıq dənizinin sahilində yerləşməsi, İspaniyanın ən önəmli şəhərlərindən biri olması onu bir başqa vazkeçilməz edir. Barselona xalqı Yeni il gecəsini ən gözəl sürprizlərlə qarşılayanlardandır. Yeni il günü şəhərdə gəzən Noseman xarakteri ilginc bir əyləncə sayılır. Yeni il gecəsindən sonrakı ilk gün isə dənizə girmə partisi başlayır. Yeni ilin ilk həftəsində kralın hədiyyələri adı altında uşaqlara müxtəlif hədiyyələr verilir.

**Köln (Almaniya)**

Köln şəhərinə həyat verən Reyn çayı sahilində yerləşən Alstadtdakı barlarda Kölnün məşhur pivəsi sayılan Kölschün müşayiəti ilə maraqlı bir Yeni il əyləncəsi keçirmək mümkündür. Əyləncə həyatını çox sevən almanlar üçün saat 24.00 olduğu zaman Dom Katedrali Meydanında fişəng şouları başlayır və müdhiş bir əyləncə sizi gözləyir. Bütün bu şouları Reyn çayı sahilində yerləşən qayıqlarda əyləşib şəhəri və şounu izləməniz mümkündür. Yeni ilin ilk günündə isə Köln Katedralının qaşısında və arxa küçələrində bir-birindən maraqlı şoular fasiləsiz olaraq davam edir.

**Dubay (BƏƏ)**

Aparılan araşdırmalara görə, xüsusən ruslar Yeni ili və özəl tətillərini isti ölkələrdə keçirməyi tərcih edir. Dəniz, qum və günəşi tərcih edənlər üçün Dubay ideal seçim sayılır. Kimsə bayrama qarlı havada, adamlarla dolu meydanlarda, səs-küyün içində girmək istəmirsə, Dubay hotellərinin hər birində fərqli əyləncə proqramları var. Dünyanın ən hündür binası olan Burj Khalifa da bu şou və əyləncələr üçün qonaqlarına qapılarını açacaq.

**Sidney (Avstraliya)**

Kim ki, tətil üçün uzaq məsafələr qət edib, heç tanımadığı-bilmədiyi ölkələrə səfər etməyə hazırdır, onun üçün Sidney də maraqlı seçimdir. Yəqin bilirsiniz ki, dünyada yeni ili ilk qutlayan şəhər Sidneydir. Burada özəl lazer, havada fişəng şouları, hər il olduğu kimi bu il də canlı yayımla bütün dünyaya yayılacaq. Azərbaycandan 11 saat qabaqda olan Sidneydə Yeni ili keçirəndən 11 saat sonra Bakı vaxtilə yenidən bir Yeni il bayramı keçirmək mümkün olacaq.

❑ **Sevinc TELMANQIZI**







## Bakıda ağır yol qəzası: ata və bir oğlu yaralandı, 2 yaşlı oğlu öldü

**Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Bakı şəhər Baş polis İdarəsindən APA-ya verilən məlumata görə, dekabrın 13-ü saat 23:30 radələrində Sabunçu rayonu Məhəmmədi qəsəbəsində Bakı şəhər sakini 1983-cü il təvəllüdlü Ayaz Abbasovun idarə etdiyi «VAZ-2107» və Tovuz rayon sakini 1984-cü il təvəllüdlü Amin Əliyevin idarə etdiyi «Opel-Frontera» markalı avtomobillər toqquşub. Nəticədə A. Abbasov və oğlu, 2011-ci il təvəllüdlü Toğrul 3 saylı xəstəxanaya yerləşdirilib. Digər oğlu 2013-cü il təvəllüdlü Ramal isə xəstəxanada ölüb. Faktla bağlı araşdırma aparılır.**

## Bu zonalarda güclü zəlzələlər gözlənilir - siyahı

### Bəzi bölgələrdə mühitin gərginlik vəziyyətinin artımı müşahidə olunur

**Azərbaycanda güclü zəlzələlərin baş verməsi gözlənilən zonalar açıqlanıb. APA-nın məlumatına görə, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin 2015-ci il üzrə Elmi-Elmi Təşkilati Fəaliyyəti üzrə Hesabatına əsasən geomaqnit sahə gərginlikləri variyasiyalarının və qradient artımlarının analizi Şəki-Şamaxı və Kürətrafı-Talış proqnostik poliqonlarındakı gərgin-deformasiya zonalarını əhatəyə almağa imkan verib.**

Bunlar İsmayıllı, Şamaxı, Şəki, Oğuz, Zaqatala - Balakən və Talış uzunmüddətli gərginlik-deformasiya zonalarıdır. Bu zonalar güclü zəlzələlərin baş verə biləcəyi zonalar kimi qiymətləndirilir.

Balakən, Zaqatala, Şəki, Oğuz seysmogen zonalarında, İsmayıllı - Şamaxı rayonu ərazisində təkrar qravimetrik ölçülərin aparıldığı müşahidə məntəqələri ətrafındakı sahələrdə, yəni Zaqatala, Qax, Şəki, Oğuz və İsmayıllı - Şamaxı - Cəngi rayonlarında, qismən isə Qəbələ rayonunda mühitin gərginlik vəziyyətinin artımı müşahidə olunur.

Hesabatda o da qeyd edilib ki, Azərbaycan ərazisinin Yer qabığının qabarma variyasiyalarının təhlili tədqiqatın məqsədi ilə yüksək dəqiqli 3 ədəd qravimetrik stansiyaları (Scrintex AutoGrav C G - 5) açılıb.

## Ağdaşda avtomobil qəzasında iki uşaq ölüb, 3 nəfər ağır xəsarət alıb

**Ağdaş rayonunda iki nəfərin ölümü ilə nəticələnən ağır avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə Bakı-Qazax avtomobil yolunun 281-ci kilometrliyində, Ağdaş rayonu ərazisində qeydə alınıb. 1979-cu il təvəllüdlü Bayramov Tural Rafiq oğlunun idarə etdiyi "Gelly" markalı avtomobil qarşı tərəfdən gələn 1974-cü il təvəllüdlü Səfərov Etibar Baxşəli oğluna məxsus "Mercedes" markalı avtomobillə toqquşub. Hadisə nəticəsində avtomobildəki iki azyaşlı uşaq, 2011-ci il təvəllüdlü Bayramlı Hüseyn Vüsal oğlu və 2012-ci il təvəllüdlü Bayramlı Ayan Tural qızı dünyasını dəyişib. Avtomobillərin sürücüləri və digər sərnişin, 1982-ci il təvəllüdlü Mehriban Bayramova Yevlax Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.**

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

Yeni MÜSAVAT
N 279 (6307) 15 dekabr 2015

**2015-ci ilin son ayını, son günlərini yaşayırıq. Azərbaycan xalqı bu ili də Qarabağ problemi ilə başa vurur. Faktiki olaraq, bu illə bağlı ötənlərdə olan ümidlər özünü doğrultmadı. Düzdür, bu ilin sonunda bir ciddi gözlənti var: dekabrın sonunda Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanın görüşünün baş tutacağı gözlənilir. ATƏT-in Minsk Qrupunun həmsədrləri bir neçə gün öncə açıqlama yaydılar ki, bölgəyə son səfərləri zamanı tərəflər buna razılıq veriblər. Ancaq bu görüşün hansısa bir nəticəsinin 2015-ci ildə özünü göstərəcəyi, necə deyərlər, artıq gecdir. O üzdən bütün ümidlər 2016-cı ilə qalır...**




# 2016 - Dağlıq Qarabağ münaqişəsi üçün "açar il"

## Qarşıdakı ildə Azərbaycanın və regionun bir nömrəli probleminin həllinə ümidlər çoxdur

Təhlilçilər hesab edir ki, 2015-ci ildə atılan bir sıra addımlar 2016-ya ümidlər yaradır. Xüsusilə ilin sonunda - "Böyük iyirmilər"in (G20) 2015-ci ilin noyabrında Antalyada baş tutan sammitində də Qarabağ danışıqlarını durğunluq dövründən çıxarmaq üçün müəyyən müzakirələr aparılıb.

Bu arada diqqəti Minsk Qrupunun fəaliyyətinin aktiv fazaya keçirilməsi məsələsinin gündəmə gəlməsi də cəlb edir. De-fakto 23 ildir Minsk Qrupu formatında Dağlıq Qarabağ münaqişəsinə dair aparılan danışıqlar səmərəsiz olub, bu format və ya bu formatlın iştirakçılarının real addımlar atmaması səbirləri tükədib. Bunun əsas səbəb haqda kifayət qədər danışılıb. Söhbət vasitəçilərin BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair məlum qətnamələrini, işğal faktını və işğalçını qulaqardı eləməsi, bununla paralel olaraq, Ermənistana gizli rəğbət bəsləməsindən gedir.

Ekspertlər bildirir ki, problemin həllində Rusiyanın bəlli səbəblərdən maraqlı olmaması amilini də yaddan çıxarmaq olmaz. Ancaq əsas motiv, əlbəttə ki, həmsədrlərin konfliktin həllinə konseptual yanaşmamasından qaynaqlanır. Amerikalı vasitəçi Ceyms Uorlikin, ardınca isə Minsk Qrupu rəhbərliyinin ötən həftə AŞPA-da Ermənistanla bağlı qəbul edilən son obyektiv qərardan rahatsız olması da elə məhz bu yanlış yanaşma ilə bağlıdır. O üzdən onlar Ermənistanı birmənalı təcavüzkar kimi tanıyan fərqli və ədalətli sənəd və qətnamələri qısqanclıqla qarşılayırlar. Məhz bu üzdən də Azərbaycan tərəfi Uorlikin həmsədr postundan uzaqlaşdırılması tələbini irəli sürüb.

Təhlillər göstərir ki, son illərdə Minsk Qrupunda balans işğalçı tərəfin xeyrinə aşkarana şəkildə pozulub. Həmsədrlər Qarabağ məsələsində beynəlxalq hüquq normalarından, nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrindən deyil, müharibənin nəticələrindən, bugünkü durumla bağlı çıxış eləməyə və ilk növbədə işğalçıları, separatçıları razı salmağa başlayıblar. Bu da haqlı olaraq, Azərbaycanı narahat edir, Bakını yeni və obyektiv həll formatı axtarışı zorunda qoyur.

Elə bir format seçilməsi təşəbbüsü ilə çıxış edilir ki, bu, münaqişənin həllində hərbi qarşıdurmanın nəticələrindən deyil, birmənalı şəkildə beynəlxalq hüquqdan çıxış eləsin, vasitəçilikdə balansı gözləsin, tərəflərin hər birini öz adı ilə adlandırmağı bacarsın.

Daha əvvəllər də danışıqlara Türkiyə və Almaniyanın da həmsədr qismində cəlb edilməsi təklifi irəli sürülüb. Lakin hələlik bunlar ciddi müzakirə olunsa da, qərar layihəsi halında belə mövcud deyil.

Ancaq ortada ümidlər, bəzi faktlar və ehtimallar var ki, buna söykənib 2016-cı ildə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində mühüm dönüş ola biləcəyini düşünməyə əsaslar yaradır.

İlk növbədə 2016-cı il Qarabağa dair formatının dəyişdirilməsi ili də ola bilər. Təbii ki, əsas vasitəçi dövlətlər, xüsusi ilə Rusiya buna mane olmasa, qeyd edilən ümidlər doğrula bilər.

Formatın dəyişdirilməsi nəticə etibarı ilə danışıqların aktiv fazaya keçməsinə və ilkin sülh anlaşmasının ortaya çıxmasına, imzalanmasına səbəb ola bilər...

Bir nüansı qeyd edək ki, hər dəfə vasitəçilərin tənqidi baş verən verəndə, vasitəçi ölkələr dərhal ümidləndirici bəyanatlar verməyə başlayırlar. Bu cür bəyanatlardan biri də ötən həftə açıqlandı.

ATƏT Nazirlər Şurasının Belqradda keçirilən iclasında Rusiya, ABŞ və Fransa nümayəndə heyətlərinin rəhbərləri - Rusiya xarici işlər naziri Sergey Lavrov, ABŞ dövlət katibi Con Kerri və Fransanın Avropa məsələləri üzrə dövlət naziri Harlem Desirin birgə bəyanatında "Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyə sadiq qalırıq" deyə, qeyd edilir.

Bəyanatda qeyd edilir ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sərkisyan arasında qarşıda gözlənilən görüşü onlar da dəstəkləyir: "Baş verən son gərginliklərin fonunda biz tərəfləri münaqişənin sülh yolu ilə həll prosesinə sadiqliyi təkrar nümayiş etdirməyə və sülh prosesində ciddi olmayan istənilən yanlış təsəvvürləri danışıqlar yolu ilə dağıtmağa çağırırıq. Tərəflər 2014-cü ildə hərtərəfli həlli nəzərdə tutulan Soçi, Uels v Paris görüşlərindəki danışıqları, 2016-cı ildə də hazırda danışılar prosesində olan təkliflər üzrə intensiv dialoqu davam etdirməlidirlər".

Həmin bəyanatda son vaxtlar cəbhə xəttindəki gərginliyin artmasından dolayı həmsədr ölkələrin müharibə variantından xüsusi narahatlıqları aydın sezilir: "**Biz xüsusilə minaatan və digər ağır silahlardan istifadəni pisləyir və bu silahların istifadə olunması səbəbilə dinc insanların xəsarət almasından təəssüf hissi keçiririk. Dağlıq Qarabağ promleminin hərbi yolla həlli yoxdur. Günahsız insanların ölümü və yaralanmasına bəraət qazandırmaq olmaz. Biz tərəfləri ən sərt dillə gərginliyi azaltmağa və insanların həyatını qorumağa çağırırıq. Həmsədrlər risk azaldıcı təkliflər irəli sürüblər. Ümid edirik ki, ATƏT araşdırma mexanizmi də daxil olmaqla tərəflər bu təklifləri qəbul edəcəklər**".

Ekspertlər vurğulayır ki, həmsədr ölkələr, eləcə də beynəlxalq qurumlar başa düşməlidir ki, əgər Ermənistanı işğal etdikləri ərazilərdən




beynəlxalq hüquq normalarının tələbləri çərçivəsində çıxmağa məcbur etməsələr, o zaman hərbi yol qaçılmaz olacaq. Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev, həmçinin müdafiə naziri, general-polkovnik Zakir Həsənov da verdikləri bəyanatlarda ermənilər sülh danışıqlarından qaçacaqları təqdirdə, müharibə haqqımızdan istifadə ediləcəyini bəyan ediblər...

Rusiya-Türkiyə əlaqələrinin hazırkı böhranlı durumunda da növbəti Əliyev-Sərkisyan görüşünün "5 rayon" məsələsi kontekstində məhsuldar ola biləcəyini söyləyib. İşin içində olan siyasət adamları və diplomatlar isə fərqli fikirdədirlər. Bunu ATƏT XİN Başçıları Şurasının təzəcə başa çatan və Qarabağ probleminə ötəri toxunulan Belqrad sammiti də təsdiqləmiş oldu.

Bu da o anlama gəlir ki, Güney Qafqazda yeni Qarabağ müharibəsinin alovlanması ehtimalı ciddi olaraq qalır və bəlkə də artmaqdadır. Ona görə ki, istənilən sülhün alternativi müharibədir. Mövcud durumu qəlizləşdirən yeni amillərdən biri isə məsələyə kifayət qədər güclü təsir imkanı olan Türkiyə və Rusiya arasında münasibətlərin keskinləşməsidir.

Bəzi analitiklərə görə, iki ölkə birbaşa hərbi qarşıdurmada maraqlı olmasa da, Dağlıq Qarabağ münaqişə zonası onların qarşıdurma meydanına çevrilə bilər. Başqa qisim siyasi şərhçilər isə hesab edirlər ki, münasibətlər hər halda qaynar fazaya keçməyəcək.

Həmin toplantıda həmçinin həmsədr ölkələr Dağlıq Qarabağa dair birgə bəyanatla çıxış edib. "Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyə sadiq qalırıq". Bu barədə Sergey Lavrov, Con Kerri və Fransanın Avropa məsələləri üzrə dövlət naziri Harlem Desirin qəbul elədiyi sənəddə deyilir.

"**Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sərkisyan arasında qarşıda gözlənilən görüşü dəstəkləyirik. Baş verən son gərginliklərin fonunda biz tərəfləri münaqişənin sülh yolu ilə həll prosesinə sadiqliyi təkrar nümayiş etdirməyə və sülh prosesində ciddi olmayan istənilən yanlış təsəvvürləri danışıqlar yolu ilə dağıtmağa çağırırıq. Tərəflər 2014-cü ildə hərtərəfli həlli nəzərdə tutan Soçi, Uels v Paris görüşlərindəki danışıqları, 2016-cı ildə də hazırda danışıqlar prosesində olan təkliflər üzrə intensiv dialoqu davam etdirməlidirlər**", - deyə bəyanatda vurğulanır.

Sənəddə daha sonra qeyd olunur ki, təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində zorakılıq hallarının ciddi şəkildə artması ilə bağlı status-kvo bu il qeyri-stabil olub. "**Biz xüsusilə minaatan və digər ağır silahlardan istifadəni pisləyir və bu silahların istifadə olunması səbəbilə dinc insanların xəsarət almasından təəssüf hissi keçiririk. Dağlıq Qarabağ probleminin hərbi yolla həlli yoxdur. Günahsız insanların ölümü və yaralanmasına bəraət qazandırmaq olmaz. Biz tərəfləri ən sərt dillə gərginliyi azaltmağa və insanların həyatını qorumağa çağırırıq. Həmsədrlər riskazaldıcı təkliflər irəli sürüblər. Ümid edirik ki, ATƏT araşdırma mexanizmi də daxil olmaqla, tərəflər bu təklifləri qəbul edəcəklər**", - deyə sənəddə ümid ifadə olunur...

Bir sıra ekspertlər qeyd edirlər ki, 2015-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi və nəticələrə, anlaşmalara yönəlik danışıqlar başlayarsa, bu, ilkin mərhələdə Dağlıq Qarabağ ətrafında işğal edilmiş 5 rayonun boşaldılması ilə bağlı olacaq. Burada bir incə məqama diqqət edək ki, Azərbaycan tərəfi məsələnin yalnız beş rayonun boşaldılması üzərindən aparılmasına qətiyyətlə razı deyil və söhbət həm də Dağlıq Qarabağın azad edilməsindən gedir. Bu baxımdan əgər hər hansı bir danışıqlar başlayarsa, bu, kompleks bir xarakter daşıyacaq. Əks təqdirdə, Azərbaycanın hər hansı itki ilə nəticələnəcək danışıqlara getməsi inandırıcı və mümkün deyil.

Ekspertlər bir məqama da diqqət çəkirlər ki, 2016-cı ildə nə Azərbaycanda, nə də Ermənistanda seçkilərin olmaması da münaqişənin həllinə dair prosesi sürətləndirən amillərdəndir.

Və sonda 2016-cı ildə Qarabağ münaqişəsinin həlli perspektivlərinə dair bir detalı da qeyd edək. Hələ 2014-cü ilin sonlarında belə bir açıqlama yayıldı ki, 2016-cı ilədək Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ əraziləri 2016-cı ilədək minalardan təmizlənəcək. Bu barədə USAİD-in İrəvandakı nümayəndəliyinin direktoru Karen Hilliard bildirmişdi. O qeyd etmişdi ki, Dağlıq Qarabağ ərazisi 2016-cı ilədək minalardan tam təmizlənmiş olacaq...

Görünür, baş verən olayların, danışıqlar prosesinin gedişatı beynəlxalq aləmdə bu qənaəti formalaşdırıbmış ki, 2016-cı ildə münaqişə həllini tapa bilər, onadək əraziləri minalardan təmizlənməsi də bir şərt kimi qoyulub.

Hər halda, ortada olan ehtimal və faktlar 2016-cı ildə Qarabağ məsələsində çox ciddi bir yeniliklərin şahidi olacağımızı düşünməyə əsas verir. Ən azı bu il sülh, yoxsa hərb yolunu seçmək məsələsinə tam aydınlıq gələcəyi ümidi var...

**Qeyd:** *Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb.*

❑ **Elşad MƏMMƏDLİ**

YENİ MÜSAVAT

Son səhifə

N 279 (6307) 15 dekabr 2015



## Facebookdan asılılığın səbəbləri

ABŞ-dakı Kornuell Universitetinin alimləri facebookun niyə bu qədər cazibədar olduğunu və sosial şəbəkələrdən imtinanın ağır olmasının səbəblərini araşdırıblar. Onlar araşdırma zamanı cəlb etdiyi könüllülərdən ibarət qrupa 99 gün ərzində sosial şəbəkədən imtina etməyi tapşırıblar. Milli.az bildirir ki, facebook istifadəçisi olan şəxslər sosial şəbəkələrdən imtina edəcəklərini desələr də, onların bəziləri bunu bacarmayıblar. Sonucda alimlər facebookdan asılılıqla bağlı əsas amilləri aşkarlayıblar. Bəlli olub ki, insan sosial şəbəkədən asılı olduğunu duyursa, onun facebooku tərk etməsi çətin məsələdir. Facebookun onu izlədiyini düşünən insanlarsa sosial şəbəkədən asanlıqla imtina edə bilirlər. Fəqət facebook başqalarının bu adam barədə rəylərinin formalaşmasında rol oynayırsa, sosial şəbəkədə akkauntunu bağlayan adamın geri qayıtması labüddür. Bundan başqa, əhval da önəm daşıyır. Belə ki, insanın əhval-ruhiyyəsi yüksəkdirsə, o, facebookdan daha az istifadə edir. Araşdırma istifadəçilərinin 39 faizinin özlərini bədbin hiss etməsinə səbəb olur. Başqa sosial şəbəkələrdən istifadə edənlərsə facebooka nadir hallarda qayıdırlar.

# Çox gülən çox yaşayar

ABŞ-ın Miçiqan ştatının Ueyn Universitetinin alimləri maraqlı bir fakt aşkar ediblər. Araşdırmalar nəticəsində məlum olub ki, şən və təbəssümlü insanlar daha çox yaşayırlar. Hesablamalar göstərmişdir ki, təbəssüm insan ömrünü orta hesabla 7 ilədək uzadır. Alimlər bu fenomenin nə ilə bağlı olduğuna hələlik cavab tapmayıblar. Lakin hesab olunur ki, təbəssüm insanın daxili harmoniyasını, nikbinliyini və həyata nikbin münasibətini əks etdirir. Odur ki, çalışın daha çox gülümsəyin və həyatda heç nəyin sizi üzməsinə izin verməyin.



# Sarıkökün faydaları

Sarıkökün çox güclü antibakterial və antiseptik xüsusiyyətləri var. Öskürək və bronxit zamanı 1 stəkan isti südə 1/2 çay qaşığı sarıkök əlavə edin, yaxşı qarışdırın və gün ərzində qəbul edin. Sarıkök mədə-bağırsaq sistemi üçün olduqca faydalıdır. Bundan əlavə, sarıkök mədə-bağırsaq sistemindəkin iltihabla mübarizə aparır. Sarıkök köpdən əziyyət çəkən insanlara da yaxşı kömək edə bilər. Sarıkök güclü ödqovucudur. Bu səbəbdən öd daşı xəstəliyi olan insanlar bu ədviyyatdan süi-istifadə etməməlidir. Sarıkök qaraciyər üçün də çox xeyirlidir - qaraciyəri təmizləyir, onun fəaliyyətinə müsbət təsir edir. Sarıkök orqanizmdə gedən mübadilə prosesləri nə də çox müsbət təsir edir, qanda şəkərin səviyyəsini normada saxlamağa kömək edir. Həmçinin qanı təmizləyir, onun tərkibini yaxşılaşdırır. Anemiyadan əziyyət çəkən insanlar balla sarıkökün dəmləməsindən istifadə edə bilər. Sübut olunub ki, sarıkök beyinin fəaliyyətinə çox müsbət təsir edir, yaddaşı və təfəkkürü yaxşılaşdırır. Artrit zamanı da çox effektli müalicəvi təsir edir. Müxtəlif xəstəliklərin və pozulmaların profilaktikası üçün qidalara və şirniyyatlara tez-tez sarıkök əlavə edin.





## Burun tutulmasını açmağın ən sadə yolu

Qış aylarının ən böyük problemlərindən biri də qrip və soyuqdəymədən yaranan burun tutulmasıdır. Burun tutulması sadə bir problem kimi görünsə də nəfəs almağa əngəl yaratdığı üçün baş ağrısı və halsızlıq yaradır. Burun tutulmasından təbii yollarla xilas olmaq mümkündürmü? Milli.az publika.az-a istinadən bildirir ki, dolan burun boşluqlarını və tutulmuş burnu dərmansız da açmaq mümkündür. Üstəlik, dərmandan daha təsirli üsuldur. Bunun üçün dilinizi üst damağa yerləşdirin və itələyin. Barmağınızı iki qaşın arasına qoyub basın. Bu şəkildə 20 saniyə gözləyin. Bu zaman burun boşluqları açılacaq və burnunuz axmağa başlayacaq.

## Qoroskop




QOÇ - Hansısa məqsədlərinizi reallaşdırmağa tələsməyin. Çünki ixtiyarınızda olan bu təqvim aktiv deyil. Yaxşı olar ki, düşüncələrinizi ilahi qanunlar əsasında tənzimləyəsiniz.

BUĞA - İşgüzar sövdələşmələrə başlamağa dəyər. Amma bu planınızı nahardan sonraya saxlamayın. Əks təqdirdə, razılığa gələ bilməyəcəksiniz. Ulduzlar pəhriz saxlamağı məsləhət görür.

ƏKİZLƏR - Ümumi mənzərə ürəyinizcə olacaq. Ələlxüsus da günün birinci yarısında iştirakçısı olduğunuz proseslərdən məmnun qalacaqsınız. Amma imkan varsa, uzaq yola çıxmaqdan vaz keçin.

XƏRÇƏNG - Özünüzə qapılmağa son qoyun. Çünki indi aktivlik məqamıdır. Göylərə, ulduzlara bel bağlamaqdansa reallığı nəzərə alıb konkret addımlar atın. Sadəlövh olmağın yeri deyil.

ŞİR - Əgər vacib bir işiniz çıxmazsa, vaxtınızı daha çox oturaq şəraitdə, lap elə evdə keçirin. Çünki bu gün sizin üçün passiv gündür. Ulduzların düzümü yalnız saat 16-18 aralığını uğurlu sayır.

QIZ - Bu günün sizə mənfi təsir edəcəyi gözləniləndir. Odur ki, fəaliyyətdə və qarşılıqlı münasibətlərdə obyektivliyinizi qorumağa çalışın. Yaxşı olar ki, axşamı öz evinizdə keçirəsiniz.

TƏRƏZİ - Qarşınızda sevinc dolu bir təqvim durur. Ulduzlar zamanın bütünlüklə xeyrinizə işləyəcəyindən xəbər verir. Bu səbəbdən də aktivliyinizi artırmalısınız. Maraqlı görüşlər də mümkündür.

ƏQRƏB - Ümumi süstlüyünüzü nəzərə alıb daha çox istirahətə yer ayırın. Qəlbinizə yaxın insanlarla görüşməyiniz rahatlığınızı artıracaq. Maliyyə sahəsində də uğurlarınız mümkündür.

OXATAN - Əgər gün ərzində səhhətinizi nəzarətdə saxlaya bilsəniz, hansısa digər probleminiz üzə çıxmayacaq. Saat 14-17 arası maraqlı və gələcəyinizdə rol oynaya bilən adamlarla rastlaşacaqsınız.

OĞLAQ - Yaxşı olar ki, bütün məsələlərdə daxili sabitliyinizi qoruyasınız. İnsanlarla münasibətdə neytral olmağa çalışın. Onsuz da ətrafınızdakılar bu gün sizi tam anlamayacaqlar.

SUTÖKƏN - Dünəndən Ay bürcünüzdə olduğu üçün davranış və ünsiyyətinizdə sabitliyi qoruyun. Hər hansı riskli addımlara da yol verməyin. Axşama doğru ürəyinizə yaxın adamlarla bir araya gəlin.

BALIQLAR - Günün ilk yarısını daha çox istirahətə həsr edin. Həmin ərəfədə evdə təmir-tikinti işləri ilə məşğul olmaq səmərəlidir. Sonrakı müddətdə isə planların icrasına başlamaq olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dinozavrın qədim ayaq izləri tapıldı



Tunisin Tatavin şəhərində dinozavrlara aid edildiyi təxmin edilən ayaq izləri tapılıb. Ərazidə araşdırma aparan arxeoloqlar AA müxbirinə açıqlamalarında İtaliyadakı Bologna Universitetinin professorları ilə birlikdə dinozavrlar haqda araşdırma apardıqlarını bildiriblər. Araşdırmalar zamanı tarixi 140-150 milyon il əvvələ aid dinozavrlara məxsus 100 ayaq izi tapılıb. Mütəxəssislər ayaq izlərini 200 metr yüksəklikdə olan bir dağda tapdıqlarını deyiblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300